RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 104 (8420) ÇƏRŞƏNBƏ, 3 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# DÜNYA GÖRDÜ, BİLDİ, QİYMƏTLƏNDİRDİ

## İLHAM ƏLİYEV KORONAVİRUSA QARŞI MÜBARİZƏDƏ AZƏRBAYCANI NÜMUNƏYƏ ÇEVİRƏN İŞLƏR GÖRDÜ

**Bəli, Prezident İlham Əliyev COVID-19 adlı dünyanı bürümüş xəstəliyi Azərbaycanda cilovlayıb ram edə bildi!**

Söhbət təkcə adi yoluxucu xəstəlikdən, Yer üzündə sürətlə yayılaraq insanları yoluxduran, bəzən hətta ölümə səbəb olan koronavirus infeksiyasından getmir!

Onu yox etmək, zəruri vaksin və dərman hazırlamaq həkimlərin, alimlərin və virusoloqların işidir!

**Məsələ dünya düzənini pozan, ölkələri öz qınına çəkilməyə məcbur edən, iqtisadi fəallığı aşağı salan, neftin qiymətini öldürən, dövlətləri və onların səhiyyə sistemini çıxılmaz duruma salan bəlanın fəsadlarının qısa vaxtda aradan qaldırılmasından, yaranan vəziyyətdən daha tez və daha çevik, az itki ilə çıxmaqdan gedir!**

*Bu isə vaxtında, daha doğrusu, vaxtı və hadisələri qabaqlamaqla görülən kompleks tədbirlərdən, uzaqgörən və səriştəli addımların atılmasından asılıdır!*

Daha bir məqam.

Bu "koronavirus əhvalatı" dünya üçün bir sınağa çevrildi, çox özündəndeyən ölkələrin dizini yerə qoydu, çoxlarının səhiyyəsini çökdürdü, hətta bəzilərinin imicini korladı!

**Əslində, hansı dövlət rəhbərinin ekstremal vəziyyətdə nəyə qadir olduğunu, dövləti və xalqı gözləyən real təhlükəni sovuşdurmaq bacarığını, darmacalda ən səmərəli və düzgün qərarlar qəbul etmək məharətini ortaya qoydu!**

*Qısaca desək, kimin kim olduğunu göstərdi!*

### QABAQLAYICI TƏDBİRLƏRİN SƏMƏRƏSİ

**Əsas məqsəd Azərbaycan vətəndaşını real təhlükədən qorumaq olsa da, Prezident İlham Əliyev pandemiyaya qarşı mübarizəni bir neçə cəbhədə aparırdı.**

*Birinci, yoluxmaların qarşısını almaq, virusun geniş areala yayılmasına imkan verməmək!*

Bu vəzifəni uğurlu həyata keçirmək üçün nədən başlamaq və nələri etmək lazımdır?

Ən çətin və mürəkkəb sual da bu idi!

Çünki virus haqqında heç kim heç nə bilmirdi, ona qarşı mübarizə təcrübəsi yox idi, hadisələrin necə inkişaf edəcəyi aydın deyildi!

Üstəlik, pandemiyanın ilk günlərindən bəzi ölkələr və beynəlxalq təşkilatlar çaşqın vəziyyətə düşmüş, özlərinə qapılmışdılar.

**Belə bir məqamda İlham Əliyevin lider xarizması və uzaqgörənliyi kara gəldi, atdığı ilk addımlarla çevik və qabaqlayıcı mexanizm yaratmağa nail oldu, virusun ölkəyə sərbəst daxil olub dərinliklərə işləməsinə, yoluxmanın əl-qol açmasına və genişlənməsinə yol vermədi!**

İlkin olaraq yanvar ayının 24-də bütün zəruri struktur və qurumları özündə birləşdirən, dövlət başçısı tərəfindən verilən hər bir tapşırığı dərhal və uğurla yerinə yetirməyə qadir Operativ Qərargah yaradıldı. Sutkanın 24 saatı ərzində fəaliyyət göstərən bu qərargah Nazirlər Kabineti yanında təşkil edildi və fəaliyyəti dövründə daim etimadı doğrultdu!

Martın 3-dən etibarən isə ölkə ərazisində bütün təhsil müəssisələrində tədris prosesi mərhələlər üzrə dayandırıldı. Daha sonra bütün kütləvi tədbirlərin keçirilməsi saxlanıldı və ya tamamilə ləğv edildi.

*Ardı 2-ci səh.*

# "Cənab Prezident, Siz xalqa arxa-dayaq olduğunuz kimi, xalq da hər zaman Sizinlədir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Salyan rayonundan həkim **Aygün Salmanova** yazır: "Möhtərəm cənab Prezident, bütün bəşəriyyətin ağır pandemiya ilə mübarizə apardığı bir dövrdə Sizin insanların sağlamlığının qorunmasına göstərdiyiniz diqqət və qayğı yüksək insani keyfiyyətlərinizin, mənəvi zənginliyinizin bariz nümunəsidir. Dünyanı çənginə alan koronavirusun ölkəmizə təsirinin minimuma endirilməsi üçün görülən tədbirlər təbii ki, Sizin adınızla bağlıdır və Sizin təkcə Azərbaycan vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının Prezidenti olduğunuzu sübut edir. Sizin uzaqgörən siyasətiniz, ən çətin məqamlarda qəbul etdiyiniz düzgün qərarlar ölkəmizi və xalqımızı pandemiyanın ağır nəticələrindən xilas etməkdədir. Mən həkimlik borcumu yerinə yetirmək üçün Astara və Masallı rayonlarına ezam olunmuş həkim kimi, virusa yoluxmuş xəstələri müalicə edən zaman Sizin biz həkimlərə və xəstələrə göstərdiyiniz diqqətin, qayğının bir daha şahidi oldum. Bununla yanaşı, pandemiyanın dünyanın ən inkişaf etmiş ölkələrində belə böyük faciə yaşatdığını da müşahidə etdik. Lakin Sizin uzaqgörənliyiniz, çevik və vaxtında həyata keçirdiyiniz tədbirlər sayəsində ölkəmiz bütün dünyaya virusla ən uğurlu mübarizə modellərindən birini göstərdi.

*Ardı 2-ci səh.*

# Maska taxmayanlara qarşı cəzalar qüvvəyə mindi

İyunun 2-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirildi. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyə 3 məsələnin daxil edildiyini bildirdi.

Gündəliyin təsdiqindən sonra deputatlar cari məsələlərlə bağlı fikirlərini bildirdilər. İlk söz alan deputat Fazil Mustafa orta məktəblərdə hərbi dərslərin bərpa edilməsinin vacibliyini önə çəkdi. Soltan Məmmədov koronavirusla mübarizə sahəsində görülən işlərdən söz açdı. Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Sumqayıtın ekologi vəziyyətinə diqqət çəkərək, məişət tullantılarının emalı ilə bağlı fikirlərini bildirdi.

Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva təmsil etdiyi dairədə kənd təsərrüfatının suvarılması ilə bağlı problemləri diqqətə çatdırdı. Qeyd etdi ki, hazırda bununla bağlı iki layihə hazırlanıb ki, onlardan biri Zəyəm çayının üzərində su anbarının tikintisidir. Bu anbarın inşası Tovuz və Şəmkir rayonlarının suvarma suyu ilə təminatında byöük rol oynaya bilər. Digər layihə isə Kür çayından su nasosları ilə kəndlərə su vurulmasıdır ki, bu layihənin reallaşdırılması da problemin həllinə xidmət edər.



Deputat Tural Gəncəliyev Kanada parlamentinin üzvü Reyçl Harderin Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən təşkil edilmiş qondarma rejimin nümayəndəsinə "təbrik məktubu" göndərməsini tənqid etdi. Bununla bağlı Kanada parlamentinin üzvlərinə etiraz məktubu göndərdiyini deyən Tural Gəncəliyevin sözlərinə görə, Reyçl Harderin köməkçisi erməni mənşəli Kanada vətəndaşıdır: "Çox böyük ehtimalla həmin köməkçi deputat Reyçl Harderi saxta məlumatlarla təmin edib. Deputat belə məlumatları əldə etdikdən sonra onu dəqiqləşdirməliydi. Münaqişə ilə bağlı məsələni obyektiv şəkildə öyrəndikdən sonra addım atmalıydı. Kanada Azərbaycanın ərazi bütövlüyünü tanıyır".

*Ardı 5-ci səh.*

# Qarşılıqlı etimada və etibara söykənən səmərəli əməkdaşlıq




## AİB-in ölkəmizə ayırdığı kredit və zəmanətlərin ümumi məbləği 3 milyard dollardan çoxdur

Asiya və ümumiyyətlə, Şərq ölkələrində iqtisadiyyatın inkişafına dəstək vermək niyyəti ilə 1966-cı ildə yaradılmış Asiya İnkişaf Bankı (AİB) bu gün dünyanın iri, nüfuzlu və etibarlı maliyyə qurumlarından hesab olunur. Baş ofisi Manilada (Filippin) yerləşən bank 1999-cu ildən (ölkəmizin AİB-in üzvü olması tarixindən) Azərbaycanla qarşılıqlı etimada və etibara əsaslanan səmərəli əməkdaşlıq edir.

Əvvəl kredit, qrant və texniki yardım layihələri, eləcə də özəl sektor əməliyyatları səviyyəsində başlanmış bu əməkdaşlıq sonrakı illər genişlənərək iqtisadiyyatın və sosial həyatın müxtəlif sahələri, o cümlədən su təchizatı, yol, nəqliyyat, enerji, ucqar kənd yerlərində əhalinin, həmçinin qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasını əhatə etmişdir. Təsadüfi deyil ki, AİB hələ 2013-cü ildə Azərbaycanı inkişaf edən ölkələr sırasında "C" kateqoriyasına yüksəltmişdir.

Bu baxımdan Azərbaycanın dövlət başçısı İlham Əliyevlə AİB-in prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və bankın rəhbərliyinin digər nümayəndələri arasında videokonfransın keçirilməsinin əhəmiyyəti böyükdür. Özü də təkcə ona görə yox ki, bankla ölkəmiz arasında hər iki tərəfi qane və məmnun edən səmərəli əlaqələr mövcuddur.

*Ardı 7-ci səh.*

# Məhsulumuz yenə də bol olacaq

## Prezident İlham ƏLİYEV: "Kənd təsərrüfatının inkişafı bizim üçün prioritet sahə olaraq qalır"

Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlarda aqrar sektorun inkişafı xüsusi önəm daşıyır. Azərbaycanın əvvəllər şöhrəti bütün keçmiş SSRİ-yə yayılan, sonralar isə məlum səbəblərdən tənəzzülə uğrayan kənd təsərrüfatının bütün sahələri artıq dirçəldilib və getdikcə daha da inkişaf etdirilir.

Aqrar sektorda görülən işlər Prezidentin daim diqqət mərkəzindədir. Dövlət başçısı kənd təsərrüfatının inkişafının prioritet olduğunu, demək olar ki, bütün çıxışlarında vurğulayır.

Cari il mayın 22-də Prezident İlham Əliyevlə "Signify" şirkətinin baş icraçı direktoru Erik Rondolat, MDB üzrə baş meneceri Erik Benedetti və rəhbərliyinin digər nümayəndələri arasında keçirilən videokonfransda da həmin məsələyə toxunulmuşdur. "Signify" şirkətinin təşəbbüsü ilə baş tutan videokonfransda şirkətin baş icraçı direktoru Erik Rondolat bu mövzudan ətraflı bəhs etmişdir. Belə ki, o, kənd təsərrüfatında, o cümlədən heyvandarlıq, quşçuluq və əkinçilik sahələrində məhsuldarlığın əhəmiyyətli dərəcədə artırılması, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı, su istehlakının azaldılması sahələrində əməkdaşlıq məsələlərinə toxunmuşdur. Eləcə də bildirmişdir ki, Azərbaycanla bu istiqamətlərdə təcrübəni bölüşməyə hazırdırlar.

Videokonfransda kənd təsərrüfatı üçün vacib daha bir məsələ - müasir texnologiyaların tətbiqi və bu məqsədlə gənc kadrların hazırlanması müzakirə olunmuşdur.

Prezident İlham Əliyev tədbir zamanı demişdir: "Bu sahədə aparılan islahatlar sayəsində biz daha çox gəncin kənd təsərrüfatı üzrə mütəxəssis olmaq istədiyini və Aqrar Universitetdə bu peşəni seçmək istəyən gənclərin sayının artdığını görürük. Biz yeni elektron kənd təsərrüfatı sistemini həyata keçiririk. Bu, artıq bizə həyatımızın və iqtisadiyyatımızın mühüm sahəsinin səmərəliliyini artırmağa çox kömək edir.

*Ardı 7-ci səh.*



# Yaşamın keşiyində: *ayıq və sayıq*

## Azərbaycan polisi çevikliyi, fədakarlığı ilə pandemiyaya qarşı mübarizəyə mühüm töhfə verir

Aylardır aparılan mübarizəyə baxmayaraq, dünya hələ də yeni növ koronavirus (COVID-19) təhlükəsindən sovuşmayıb. Hər gün ölkələr üzrə virusa yoluxma və onun aldığı canların sürətlə çoxalma statistikası vahiməli bir şəkildə artır.

Dünya böhranda, bəşəriyyət qorxu içərisindədir. İnsanların sağlığı təhlükədə, gələcəyi sual altındadır. Gözəgörünməz "taclı" bəlanın tibbi çarəsi isə hələ də tapılmayıb və elm aləmi gecə-gündüz qurtuluş peyvəndi üzərində "baş sındırır"...

Azərbaycanda infeksiyanın yayıldığı ilk zamanlardan etibarən ona qarşı effektiv mübarizəyə başlanıldı. COVID-19-un ölkəmizdə yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədi ilə Prezident İlham Əliyevin tapşırığına əsasən, hələ yanvar ayından etibarən zəruri qabaqlayıcı tədbirlər görülməyə başlandı. Profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradıldı.

*Ardı 6-cı səh.*

# DÜNYA GÖRDÜ, BİLDİ, QİYMƏTLƏNDİRDİ

## İLHAM ƏLİYEV KORONAVİRUSA QARŞI MÜBARİZƏDƏ AZƏRBAYCANI NÜMUNƏYƏ ÇEVİRƏN İŞLƏR GÖRDÜ






Əvvəli 1-ci səh.

Martın 14-dən bir sıra sosial təcrid tədbirləri icra edildi, 24-dən isə xüsusi karantin rejiminin tətbiqinə başlandı!

*Zaman və hadisələrin sonrakı gedişi göstərdi ki, dövlət başçısının bu addımları həlledici olmaqla azğın koronavirusun ölkə ərazisində ram edilməsində çox mühüm rol oynadı!*

**Antikoronavirus mexanizmi qurulduqdan sonra digər cilovlama tədbirləri də ardıcıllıqla görüldü:**

- Ticarət və əyləncə mərkəzlərinin fəaliyyəti dayandırıldı;
- Əvvəlcə Bakı və Sumqayıt şəhərlərinə, Abşerona giriş qadağan edildi, sonra rayonlararası get-gəl məhdudlaşdırıldı, metronun işinə fasilə verildi;
- Aprelin 5-dən isə ölkədə hərəkət məhdudiyyəti tətbiq edildi;
- İnsanların (xüsusi icazəsi olanlardan başqa) səbəbsiz və icazəsiz evlərindən çıxmalarına yol verilmədi;

*Əlbəttə, bütün bu qadağalar qəflətən, izahsız qoyulmurdu!*

ƏVVƏLCƏDƏN:

- Dövlət başçısı xalqa müraciət edərək pandemiyanın ciddiliyini, insan həyatına böyük təhlükə törətdiyini, zəruri tədbirlər görülməyəcəyi təqdirdə faciəli nəticələrə gətirəcəyini, buna görə də qoyulan qaydalara danışıqsız əməl olunmasının vacibliyini diqqətə çəkdi;
- Bütün KİV-də və telekanallarda geniş maarifləndirmə işləri aparıldı;
- İnsanların panikaya, yersiz qorxuya və təlaşa düşmələrinin qarşısı alındı, onlara necə hərəkət etmələri, virusdan necə qorunmaları sistemli qaydada izah olundu;
- ÜST ilə operativ əlaqə quruldu, sıx əməkdaşlığa başlanıldı, onların tövsiyə və məsləhətləri nəzərə alındı, koronavirusa qarşı mübarizədə dəstəklərindən istifadə olundu, 5 mln. dollar həcmində yardım göstərildi;
- Xarici səfərlər ləğv olundu, elektron viza verilişi dayandırıldı, sərhədlər bağlandı, təyyarə reysləri təxirə salındı, koronavirus təhlükəsi daha çox duyulan sərhəd bölgələrində FHN-in səyyar hospitalları təşkil olundu, xaricdən gələn ölkə vətəndaşları karantin rejiminə salındı, virusun yayılmasının qarşısı elə ilk günlərdən alındı;
- Ölkənin səhiyyə sistemi səfərbərliyə alındı, yubanmadan xaricdən dərmanlar, testlər, aparat və avadanlıqlar, zəruri laboratoriyalar alınıb gətirildi, Yeni Klinikanın açılışı sürətləndirilərək virusa yoluxmuş insanların müalicəsinə istiqamətləndirildi. Təkcə mart ayında ölkənin 3 şəhərində 3 yeni xəstəxana istifadəyə verildi, qısa vaxtda 6-sı dövlət , 4-ü isə özəl sahibkarlar tərəfindən tikilən və hər biri 200 çarpayılıq olan 10 müasir tipli modul xəstəxanalar inşa edildi;
- İyirmi mindən artıq Azərbaycan vətəndaşı müxtəlif ölkələrdən, o cümlədən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə vətənə gətirilərək dövlət hesabına 4 və 5 ulduzlu mehmanxanalarda, birinci Avropa Oyunları zamanı açılmış Atletlər kəndində, habelə sahibkarlar tərəfindən könüllü təqdim edilmiş istirahət məkanlarında karantinə alındılar.

**Cənab İlham Əliyevin atdığı qabaqlayıcı addımlar sayəsində yoluxma zənciri vaxtında qırıldı, Azərbaycan bu sahədə də dünyada fərqli, uğurlu nəticə qazandı!**

### EVDƏN ÇIXMAYANLARA EVDƏ DÖVLƏT QAYĞISI

**Xalqa "Evdə qal", "Biz birlikdə güclüyük!" çağırışı ilə müraciət edən cənab İlham Əliyev müvəqqəti olaraq evdə qalan hər bir vətəndaşının yanında oldu!**

**Hər birinə dövlət qayğısı göstərməklə!**

**Hər birini maddi və mənəvi sıxıntıdan qorumaqla!**

"Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır" deyimini növbəti dəfə həqiqətə və reallığa çevirməklə!

*İnsan hətta dövlətin çağırışı və icazəsi ilə evdə oturanda belə yeyir, içir, kommunal xərcləri ödəyir, kredit borcunu qaytarır və s.*

*Prezidentimiz bunların hamısını nəzərə aldı!*

*Bu məqsədə dövlət büdcəsindən böyük səxavətlə vəsait ayrıldı: 3,5 milyard manat!*

*Və bu vəsait müvafiq mexanizm yaradılmaqla qanunauyğun şəkildə hər bir vətəndaşa çatdırıldı!*

Prezidentin formalaşdırdığı sosial-iqtisadi dəstək paketindən böyük sayda insanlar bəhrələndi:

- dövlət sektorunda 900 mindən çox işçinin əməkhaqqı tam həcmdə saxlanıldı;
- qeyri-dövlət sektorunda 690 min işçinin əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənildi;
- 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışanlara yaşayış minimumuna uyğun olaraq iki ay ərzində 190 manat verildi;
- ödənişli ictimai iş yerlərinin sayı əhəmiyyətli dərəcədə artırılaraq 90 minə çatdırıldı;
- 12 min nəfər özünüməşğulluq proqramına cəlb olundu;
- ünvanlı sosial yardım alanların sayı 36 min nəfərə yüksəldildi;
- banklar tərəfindən sahibkarlara yeni ayrılan kreditlərin 60 faizinə dövlət zəmanəti verildi;
- bütövlükdə, dövlətin, yardımı və köməyinin əhatə dairəsi 2,5 milyon ölkə vətəndaşına çatdırıldı!

*Qısa şəkildə və rəqəmlərin dili ilə ifadə olunan bu addımlar, əslində, dövlətin daim xalqın yanında olduğunun, dar ayaqda onun bütün ehtiyac və çətinliyini qarşıladığının, xalq - iqtidar birliyinin növbəti əyani təzahürü sayılır!*

**Xalq öz Prezidentini bu ağır günlərdə bir daha sınadı və sevdi!**

### DÜNYA ƏHSƏN DEDİ!

*İlham Əliyev böyük ürək, geniş qəlb sahibidir!*

*Azərbaycan xalqı bunu çoxdan bilir, hədsiz sevgi və razılıqla qarşılayır!*

*Koronavirus pandemiyası sınağında isə bunu bütün dünya da gördü, bildi və dəyərləndirdi!*

*Hazırda türk dünyasının sayılıb-seçilən liderlərindən biri kimi tanınan İlham Əliyev bu ağır və sınaqlı günlərdə rəhbərlik etdiyi qurumları və köməyə ciddi ehtiyacı olan dövlətləri də unutmadı!*

*Qısa vaxtda bu bəlaya qarşı mübarizədə Azərbaycanın qazandığı müsbət təcrübəni bütün dünya ilə bölüşdü.*

Hazırda rəhbərlik etdiyi iki böyük təşkilatın - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının videokonfrans formatında zirvə görüşlərini keçirərək Azərbaycanın nümunəyə çevrilən təcrübəsini onlarla bölüşdü, pandemiyaya qarşı birgə mübarizənin konturlarını cızdı, ÜST-ə əlavə 5 mln. dollar vəsait verərək ən kasıb və ehtiyac duyan ölkələrə çatdırılmasını tövsiyə etdi!

Artıq Azərbaycan 13 ölkəyə və beynəlxalq təşkilata yardım göstərmişdir!

**Azərbaycan Prezidenti İlham Əliyevin bu çətin, qorxulu və mürəkkəb dövrdə öz xalqı, Ümumdünya Səhiyyə Təşkilatı və dünya ölkələri üçün gördüyü işlər hamı tərəfindən rəğbət və razılıqla qarşılandı, dünya bizim Prezidentə "əhsən" söylədi.**

Bu qürurlu münasibət ona ünvanlanan məktub və müraciətlərdə dönə-dönə səsləndirildi.

### POSTPANDEMİYA DÖVRÜNƏ DƏ HAZIRLIQ

Koronavirusdan zəruri qorunma taktikası dünya iqtisadiyyatına güclü zərbə vurdu!

Bu mənfi təsir hələ də davam etməkdədir!

Nələri nəzərdə tuturuq:

- ölkələr virusdan qorunmaq üçün sərhədlərini bağladılar, təyyarə uçuşları, iqtisadi və turizm əlaqələri kəskin şəkildə məhdudlaşdırıldı;
- xidmət sahələri, hotelçilik fasilə verməli oldu;
- bir sıra istehsal sahələri, çoxsaylı insanların birgə çalışdıqları müəssisələr dayanmaq məcburiyyətində qaldı;
- kütləvi tədbirlər, toy şənlikləri, idman yarışları qadağan edildi;
- neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi ciddi maliyyə problemləri yaratdı;
- büdcəyə ödəmələrin azalması və dayanması qarşıdakı dövrdə ciddi çətinliklərdən xəbər verməkdədir!

*Əlbəttə, bütün bunlar insanları qorumaq naminə atılan zəruri addımlar sayılsa da, iqtisadiyyatda durğunluq və geriləmə ilə nəticələnmişdir!*

Dünya çox ciddi böhran ərəfəsindədir!

**Prezident İlham Əliyevin rəhbərliyi ilə artıq iqtisadiyyatda yaranacaq fəsadları qarşılamaq və daha ağrısız keçirmək üçün önləyici tədbirlər görülmüş və görülməkdədir. Dövlət başçısının uzaqgörənliyi ilə yaradılan valyuta ehtiyatı, qeyri-neft sektorunun inkişafı sayəsində son dövrlərdə həyata keçirilən mühüm tədbirlər, sahibkarlığın inkişafına verilən dəstək və kənd təsərrüfatında mövsümi işlərin uğurlu aparılması Azərbaycanın gözlənilən iqtisadi böhrandan uğurla çıxacağından xəbər verir.**

❖ ❖ ❖

Pandemiyanın daha bir - üçüncü dalğası da gözləniləndir!

Azərbaycan dövlət başçısının önləyici tədbirləri sayəsində buna da hazırdır!

Bəladan itkisiz sovuşmaq mümkün deyil!

Ancaq indiyədək görülən işlər və qabaqlayıcı addımlar ölkəmizin yaxşı qorunanlar sırasında yer alacağından xəbər verir!

**Çünki öndə İlham Əliyev kimi xalqını sevən, onu qorumağı bacaran, hadisələri qabaqlayan rəhbər vardır!**

**Bəxtiyar SADIQOV**

# "Cənab Prezident, Siz xalqa arxa-dayaq olduğunuz kimi, xalq da hər zaman Sizinlədir"

Əvvəli 1-ci səh.

Bu, bir vətəndaş və bir həkim olaraq məni sevindirməyə bilməz. Bütün bunlara görə Sizə minnətdarlığımı bildirirəm. Sizinlə fəxr edirəm, qürur duyuram, cənab Prezident. Allah Sizi qorusun!"

Yardımlı rayonunun Qabaqdibi kəndindən **Rüfət Sarıyev:** "Hörmətli cənab Prezident, hazırda dünyamız böyük çətinliklə üzləşmişdir. Bütün dünya ölkələri COVID-19 pandemiyası ilə mübarizə aparır. Bir sıra ölkələrdə vəziyyət çox acınacaqlı olduğu halda, Azərbaycan vətəndaşı nisbətən rahat yaşayır. Sağlamlığımızı düşündüyünüzə, qayğımıza qaldığınıza görə Sizə təşəkkür edirik. Bir Azərbaycan vətəndaşı kimi, daim Sizin siyasətinizi və apardığınız islahatları dəstəkləyirik və Sizinlə qürur duyuruq. Allahdan Sizə uzun və sağlam ömür arzulayırıq".

Sumqayıt şəhərindən şagird **Kənan Mahmudlu:** "Möhtərəm cənab Prezident, mən Təbiət elmləri təmayüllü gimnaziyanın 6-cı sinif şagirdiyəm. Hazırda dünyanı sarsıdan koronavirus bəlası Azərbaycanda da yayılmışdır. Hörmətli Prezidentim, Sizin uzaqgörənliyiniz sayəsində bu bəlanın fəsadları ölkəmizdə minimum səviyyəyə endirildi. Əhalinin sağlamlığının qorunması və xalqımızın bu bəladan daha az itkilərlə qurtulması istiqamətində mühüm işlərinizə görə sinfimizin şagirdləri adından Sizə dərin minnətdarlığımı bildirirəm".

Bakının Yasamal rayonundan **Rəmzi Dədəkişiyev:** "Hörmətli cənab Prezident, Allah Ulu Öndərimiz Heydər Əliyevə rəhmət eləsin. 1993-cü ildə xalqımızı böyük bəladan xilas etdi. Siz Ulu Öndərin yolunu layiqincə davam etdirirsiniz. Pandemiya dövrü bunu bir daha sübut etdi. Sizin müdrik qərarlarınız və məqsədyönlü addımlarınız sayəsində xalqımızın koronavirusdan müdafiəsi etibarlı şəkildə təmin olunmaqdadır. Biz xalq olaraq keçmişi də görmüşük, bu günü də görürük. Əlbəttə ki, fərq çox böyükdür. Ölkəmizdə 1990-cı illərin əvvəllərində hökm sürən xaosu, özbaşınalığı, aclığı indi tərəqqi, inkişaf, yüksək rifah əvəzləyib. Cənab Prezident, Siz xalqa arxa-dayaq olduğunuz kimi, xalq da hər zaman Sizinlədir. Sizin dediyiniz kimi, "Biz birlikdə güclüyük!"

Beyləqan rayonunun sakinləri **Mircəfər İsmayılov, Yasəmən Hüseynova, Cəfər Cəfərov** və **Mansır Kərimov** yazırlar: "Hörmətli cənab Prezident, Sizin prezidentliyiniz dövründə Azərbaycan böyük uğurlar əldə etmiş, çətinliklərin öhdəsindən mətinliklə gəlmişdir. Cəbhə bölgəsində yaşayan məcburi köçkünlər olaraq inanırıq ki, Sizin dəstəyinizlə koronavirus epidemiyasına da qalib gələcəyik. Sizin tapşırığınızla yaşı 65-dən yuxarı olan vətəndaşlara, o cümlədən sosial baxımdan həssas ailələrə xüsusi qayğı göstərilməsi, ərzaq yardımlarının verilməsi, karantin dövründə 190 manat məbləğində pul vəsaitinin ödənilməsi sübut edir ki, Sizin yürütdüyünüz siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun rifahı dayanır. Cənab Prezident, xalqımız Sizə arxalanır və güvənir. Çünki ataların bir məsəli var: "Gördüyünü qoyub, görəcəyə getmə". Sizin gördüyünüz işlər göz qabağındadır. Allah uğurlarınızı daha da bol eləsin!"

İmişli rayonunun Yuxarı Qaralar kəndinin sakini **Şəmsiyyə Rahmanova:** "Hörmətli cənab Prezident, mən bir Azərbaycan vətəndaşı, gənc nəslin nümayəndəsi və dövlət qulluqçusu kimi bu məktubu Sizə böyük qürur hissi və sevgi ilə yazıram. Azərbaycan gənci kimi dünyada, eləcə də ölkəmizdə gedən prosesləri yaxından izləyirəm. Fəaliyyətinizi, Azərbaycan xalqına göstərdiyiniz əvəzolunmaz xidmətlərinizi yüksək qiymətləndirirəm. Hələ koronavirus infeksiyasının dünyanı bürüməditi vaxtdan ölkəmizdə Sizin tərəfinizdən çox ciddi, davamlı və təsirli tədbirlər həyata keçirildi. Azərbaycan dövlətinin atdığı addımlar dünyanın bir çox inkişaf etmiş ölkələri üçün nümunə oldu. Sizin bütün qərarlarınızla həmrəyik. Hamımız inanırıq ki, bu qərarlar bizi bu bəladan minimum zərərlə qurtaracaq. Biz hər zaman, eləcə də pandemiya dövründə Sizin dəstəyinizi öz üzərimizdə hiss edirik. Biz Sizi və fəaliyyətinizi dəstəkləyir və Sizə güvənirik. Xoşbəxt xalqıq ki, ölkəmizin Sizin kimi Prezidenti var. Sizə minnətdarıq, cənab Prezident".

Bakı şəhərindən **Mehriban Mirzəyeva:** "Möhtərəm cənab Prezident, Siz Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısısınız. Xalqımızın rifahı, daha yaxşı yaşaması üçün gördüyünüz bütün işləri alqışlayır, yorulmaz fəaliyyətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Dünyanı çənginə almış koronavirus pandemiyası Azərbaycandan da yan keçməyib. Sizin müdrik və uzaqgörən siyasətiniz nəticəsində ölkəmizdə pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində mühüm addımlar atılıb. Bütün bunlar sübut edir ki, yürütdüyünüz siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun rifahı dayanır. Cənab Prezident, insanların sağlamlığının qorunması məqsədilə Sizin tapşırığınızla hər bir vətəndaşa hər cür yardım göstərilir. Gördüyünüz bu işlər, qabaqlayıcı tədbirlər bir daha sübut edir ki, Siz daim xalqımızı düşünür və hər bir vətəndaşın qayğısına qalırsınız. Cənab Prezident, Sizin "Biz birlikdə güclüyük!" çağırışınız uzun illər ölkəmizin zəfər simfoniyası olacaq. Biz Sizinlə fəxr edirik. Allah Sizi, ailənizi və xalqımızı qorusun!"

Saatlı rayonunun Çolpı kəndindən **Vaqif İbrahimov:** "Möhtərəm cənab Prezident, Sizə öz adımdan və qohumlarımın adından təşəkkürümüzü bildirirəm. Koronavirusun dünyada yayıldığı bir vaxtda Siz qısa müddətdə xəstəxanalar inşa etdirərək tam hazır vəziyyətdə xalqımızın istifadəsinə verdiniz. Maska istehsalı fabrikinin açılması, şəhər və rayonlarda mütəmadi olaraq dezinfeksiya işlərinin aparılması, işsiz vətəndaşlara yardımların verilməsi Sizin çevik və zəruri tədbirlərinizin nəticəsidir. Bütün bunların hesabına Azərbaycanda kütləvi yoluxmanın qarşısı alınmışdır. Sevindirici haldır ki, digər ölkələr Sizin iş prinsipinizdən örnək götürürlər. Biz Sizinlə fəxr edirik. Siz Azərbaycan xalqının dayağı olduğunuz üçün Allah Sizə hər zaman dayaq olsun! Sizin bu iş prinsipinizi gördükdə Ulu Öndər Heydər Əliyevin 1980-ci ildə Sabirabad rayon zəhmətkeşləri qarşısında çıxış edərkən söylədiyi sözləri xatırladım. Ulu Öndər o vaxt demişdi: "İnsanda istək olanda, arzu olanda, iradə olanda qarşıda duran hər bir çətinliyə nail olmaq olar". Bəli, bu istəyi Sizdə gördük. Sizin işlərinizə "əhsən" deyirik. O gün olsun ki, işğal edilmiş torpaqlarımız sülh yolu ilə azad olunsun, növbəti təşəkkür məktubunu da onda yazaq. Hörmətli Prezident, Sizə möhkəm cansağlığı, gələcək işlərinizdə yeni-yeni uğurlar, ailə səadəti, xoşbəxtlik arzulayırıq".

Şirvan şəhərindən **Fəridə Yahyayeva:** "Hörmətli cənab Prezident, koronavirus infeksiyasına qarşı həyata keçirdiyiniz ardıcıl və məqsədyönlü tədbirlərə, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına və sağlamlığının qorunmasına görə verdiyiniz düşünülmüş qərarlara görə Sizə ailə üzvlərimizin adından və öz adımdan dərin minnətdarlığımı bildirirəm. Çünki biz görürük ki, Azərbaycan xalqının yaxşı güzəranı və gözəl gələcəyi Sizin üçün ən ümdə məsələdir. Məhz verdiyiniz operativ qərarlar göstərdi ki, digər ölkələrlə müqayisədə ölkəmiz bu infeksiyadan az zərərlə çıxmağı bacarır. Cənab Prezident, mən böyük qürurla deyə bilərəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan xalqı qarşılaşdığı bu bəladan tezliklə qurtulacaq və narahatlıq keçirdiyimiz çətin günlər arxada qalacaqdır. Siz olduqca şərəfli və çətin bir yoldasınız. Azərbaycan xalqı Sizi sevir, dəstəkləyir və verdiyiniz hər bir qərarın arxasında durur. Bir daha ölkəmizin sağlam gələcəyi və inkişafı naminə gördüyünüz işlərə və yorulmaz fəaliyyətinizə görə Sizə minnətdaram. Sizə möhkəm cansağlığı diləyirəm. Tanrı Sizi və ölkəmizi qorusun!".

Quba şəhərindən **Sahilə Ağasiyevanın** məktubunda deyilir: "Hörmətli cənab Prezident, son aylarda bəşəriyyətin bəlasına çevrilən COVID-19-la bütün dünya mübarizə aparır. Belə bir vaxtda Siz xalqa müraciət etməklə bir daha bizimlə - xalqla birlikdə olduğunuzu isbat etdiniz. Bildirmək istəyirəm ki, Sizin həyata keçirdiyiniz bütün qabaqlayıcı tədbirləri ürəkdən bəyənirik. Azərbaycanın bütün bölgələrində vətəndaşlarımızın sağlamlığının qorunması naminə görülən tədbirlər uğurla davam etdirilir. Biz bilirik ki, pandemiyanın miqyasının məhdudlaşdırılması istiqamətində atılan hər bir addım mühüm strateji əhəmiyyət kəsb edir və baş verə biləcək fəsadların aradan qaldırılmasına yönəldilib. Artıq xalqımız bu bəlanın ciddiliyini Sizin tövsiyələriniz sayəsində daha dərindən anlayaraq dərk edib. Cənab Prezident, Sizin sözünüzlə desək, "Biz birlikdə güclüyük!" Xalqımızın rifahı və sağlamlığı naminə atdığınız bütün addımlarınızı dəstəkləyir, Sizin rəhbərliyinizlə ölkəmizin işıqlı və gözəl gələcəyinə əminliyimi ifadə edirəm. Ulu Tanrıdan Sizə uzun ömür və cansağlığı arzu edirəm".

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222; Azərbaycan Respublikasının 2020-ci il 30 mart tarixli 41-VIQD nömrəli, 24 aprel tarixli 62-VIQD nömrəli və 1 may tarixli 69-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 43.1-ci maddədə “211” rəqəmləri “211.1” rəqəmləri ilə əvəz edilsin;

2. 211-ci maddənin mətni 211.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 211.2-ci və 211.3-cü maddələr əlavə edilsin:

“211.2. Epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər və hüquqi şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə -

fiziki şəxslər əlli manat məbləğində, vəzifəli şəxslər yüz manat məbləğində, hüquqi şəxslər iki yüz manat məbləğində cərimə edilir.

211.3. Bu Məcəllənin 211.2-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər dörd yüz manat məbləğində cərimə edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2020-ci il*

# “Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası”nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında dövlət uşaq siyasətinin həyata keçirilməsi və uşaqların hüquqlarının müdafiəsinin kompleks şəkildə təmin edilməsi məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası” (bundan sonra - Strategiya) təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Strategiyanın həyata keçirilməsində əlaqələndirici orqan Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Strategiyanın 2020-2025-ci illərdə icrası üzrə fəaliyyət planının layihəsini 3 (üç) ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2020-ci il*

*Sərəncama edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 2 iyun tarixli 124-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 2 iyun tarixli 124-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 may tarixli 1015 nömrəli Fərmanı) 4.3-cü bəndinə “cümləsində,” sözündən sonra “211.2,” rəqəmləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 2 iyun tarixli 124-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2020-ci il*

# Sumqayıt şəhərində müasir işıqlandırma sistemlərinin quraşdırılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında regionların davamlı inkişafı ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərindəndir. Son illərdə uğurla həyata keçirilən dövlət proqramlarının icrası nəticəsində paytaxtda və regionlarda, eləcə də Sumqayıt şəhərində mühüm infrastruktur layihələri həyata keçirilmiş, kommunal və sosial xidmətlərin həcmi və keyfiyyəti daha da yaxşılaşmış, abadlıq işləri geniş vüsət almışdır.

Bu tədbirlərin davamı olaraq, növbəti dövrlərdə də əhalinin elektrik enerjisi ilə təminatında, habelə küçə və prospektlərin işıqlandırılmasında idarəetmə, nəzarət, ölçmə və hesabatlılıq, habelə enerji sərfiyyatına və xidmət xərclərinə qənaət kimi üstünlükləri olan, işıqlandırma səviyyəsini proqramlaşdırmağa imkan verən və intellektual idarəetməyə əsaslanan işıqlandırma sistemlərinin quraşdırılması diqqət mərkəzində saxlanılacaq aktual məsələlərdəndir. Yeni və müasir işıqlandırma sistemləri funksionallığı ilə yanaşı, şəhərin estetik görünüşünü də dəyişərək onun simasını müasir çalarlarla daha da zənginləşdirir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Sumqayıt şəhərində ən müasir və qabaqcıl texnologiyaların imkanlarından istifadə etməklə enerjiyə qənaətə imkan verən və enerji səmərəliliyini artıran, fasiləsiz işıqlandırmanı təmin edən müasir işıqlandırma sistemlərinin quraşdırılması məqsədilə **qərara alıram:**

1. Sumqayıt şəhərində müasir işıqlandırma sistemlərinin quraşdırılması üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə 6,0 (altı) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2020-ci il*

# “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348; 1999, № 11, maddə 609; 2000, № 11, maddə 776; 2001, № 9, maddə 576, № 12, maddələr 733, 736; 2002, № 12, maddə 706; 2004, № 7, maddə 505, № 12, maddə 976; 2005, № 1, maddə 2, № 12, maddə 1082; 2006, № 11, maddə 923, № 12, maddə 1018; 2007, № 1, maddə 4, № 12, maddə 1193; 2008, № 2, maddə 49, № 4, maddə 254, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 970; 2010, № 4, maddə 276, № 11, maddə 949; 2011, № 10, maddə 883; 2013, № 11, maddə 1284, № 12, maddə 1487; 2014, № 10, maddə 1171; 2016, № 4, maddə 657, № 6, maddə 971; 2017, № 3, maddə 336, № 7, maddə 1279; 2018, № 3, maddələr 369, 396, № 5, maddələr 870, 894, № 12 (I kitab), maddə 2502; 2019, № 1, maddə 35, № 3, maddə 380) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9-cu maddənin ikinci hissəsi üzrə:

1.1.1. beşinci abzasdan “və sığortaolunanların” sözləri çıxarılsın;

1.1.2. altıncı və yeddinci abzaslar müvafiq olaraq yeddinci və səkkizinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

“məcburi dövlət sosial sığortanın məqsədləri üçün sığortaedənlərin təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların uçotunu aparmaq;”;

1.2. 10-cu maddənin ikinci hissəsi üzrə:

1.2.1. üçüncü abzasa “sosial” sözündən əvvəl “bu Qanunun 14.5.1-1-ci maddəsində göstərilən fiziki şəxslər istisna olmaqla,” sözləri əlavə edilsin;

1.2.2. beşinci abzas yeddinci abzas hesab edilsin və aşağıdakı məzmunda beşinci və altıncı abzaslar əlavə edilsin:

“bu Qanunun 14.5.1-1-ci maddəsində (bu Qanunun 14.5.1-1.10-cu maddəsi istisna olmaqla) nəzərdə tutulan fəaliyyət növlərini Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz” almaqla həyata keçirmək;

bu Qanunun 14.5.1-1.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növünü Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada “Fərqlənmə nişanı” almaqla həyata keçirmək;”;

1.3. 13-cü maddə üzrə:

1.3.1. 13.1-ci maddədən “və sığortaolunanların” sözləri çıxarılsın və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Məcburi dövlət sosial sığortanın məqsədləri üçün sığortaolunanların sığortaçıda uçotu sığortaedənlərin təqdim etdiyi məlumatlar əsasında aparılır.”;

1.3.2. 13.4-cü maddəyə “tərəfindən” sözündən sonra “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırılmaqla,” sözləri əlavə edilsin;

1.4. 14-cü maddə üzrə:

1.4.1. 14.5.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“14.5.1. sahibkarlıq fəaliyyəti üzrə - minimum aylıq əməkhaqqının tikinti sahəsində 50 faizi, digər sahələrdə 25 faizi miqdarının:

Bakı şəhərində 100 faizi;

Sumqayıt və Gəncə şəhərlərində 90 faizi;

digər şəhərlərdə 80 faizi;

rayon inzibati ərazi vahidlərinin inzibati mərkəzi olan inzibati ərazi vahidlərində və qəsəbələrdə 60 faizi;

kənd yerlərində 50 faizi miqdarında.”;

1.4.2. aşağıdakı məzmunda 14.5.1-1-ci və 14.5.1-2-ci maddələr əlavə edilsin:

“14.5.1-1. Bu maddədə nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər üçün:

14.5.1-1.1. toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət - minimum aylıq əməkhaqqının 5 faizi miqdarında;

14.5.1-1.2. fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla) sahəsində fəaliyyət - minimum aylıq əməkhaqqının 5 faizi miqdarında;

14.5.1-1.3. çəkməçi, pinəçi - minimum aylıq əməkhaqqının 3 faizi miqdarında;

14.5.1-1.4. saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri - minimum aylıq əməkhaqqının 3 faizi miqdarında;

14.5.1-1.5. fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi və iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslər (ofisiant) - minimum aylıq əməkhaqqının 3 faizi miqdarında;

14.5.1-1.6. nəqqaşlıq emalatxanalarının fəaliyyəti - minimum aylıq əməkhaqqının 3 faizi miqdarında;

14.5.1-1.7. fərdi qaydada bərbər fəaliyyəti ilə məşğul olan şəxslər - minimum aylıq əməkhaqqının 3 faizi miqdarında;

14.5.1-1.8. fərdi qaydada dərzi fəaliyyəti ilə məşğul olan şəxslər - minimum aylıq əməkhaqqının 3 faizi miqdarında;

14.5.1-1.9. mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqı ödəyənlər istisna olmaqla) və ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli (I və II dərəcə əlilliyi olan şəxslər, həmçinin sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar istisna olmaqla, 15 yaşından “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinədək olan şəxslər) ailə üzvlərinin hər biri üçün məcburi dövlət sosial sığorta haqqı torpağın sahəsindən asılı olaraq minimum aylıq əməkhaqqının aşağıda göstərilən dərəcələri üzrə hesablanır:

5 hektaradək olduqda - 2 faiz miqdarında;

5 hektardan 10 hektaradək olduqda - 6 faiz miqdarında;

10 hektardan yuxarı olduqda - 10 faiz miqdarında;

14.5.1-1.10. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada “Fərqlənmə nişanı” alan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri - minimum aylıq əməkhaqqının 6 faizi miqdarında.

14.5.1-2. Bu Qanunun 14.5.1-1-ci maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər (bu Qanunun 14.5.1-1.9-cu maddəsində göstərilənlər istisna olmaqla) üçün aylıq sosial sığorta haqqının məbləği aşağıdakı əmsallar tətbiq edilməklə müəyyən olunur:

Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) - 2,0;

Abşeron rayonunda, Sumqayıt və Gəncə şəhərlərində - 1,5;

Digər şəhər və rayonlarda - 1,0.”;

1.4.3. 14.5.5-ci maddədə “20 faizi” sözləri “(xərclər çıxılmaqla) 10 faizi” sözləri ilə əvəz edilsin;

1.4.4. 14.5.6-cı maddə ləğv edilsin;

1.4.5. 14.6-cı maddədə “Məcburi” sözü “Bu Qanunun 14.5.1-1-ci maddəsində göstərilən fiziki şəxslər istisna olmaqla, məcburi” sözləri ilə əvəz edilsin;

1.4.6. aşağıdakı məzmunda 14.6-1-ci maddə əlavə edilsin:

“14.6-1. Bu Qanunun 14.5.1-1.1 - 14.5.1-1.9-cu maddələrində göstərilən fiziki şəxslər tərəfindən məcburi dövlət sosial sığorta haqqı “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz” alınarkən, bu Qanunun 14.5.1.1-10-cu maddəsində göstərilən fiziki şəxslər tərəfindən isə “Fərqlənmə nişanı” alınarkən ödənilir.”;

1.5. 15-ci maddə üzrə:

1.5.1. üçüncü abzas aşağıdakı redaksiyada verilsin:

“faktiki ezamiyyə xərclərinin, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin və ya digər işgüzar xərclərin (görüşlərin keçirilməsi ilə bağlı qonaqların görüş yerinə gətirilməsi və görüş yerindən aparılması xərcləri, ictimai-iaşə obyektlərində qonaqlar üçün ziyafətlərin təşkili, habelə bu tədbirlərin keçirilməsi üçün hazır yeməklərin alınması üzrə çəkilmiş xərclər və görüşlərə cəlb edilmiş tərcüməçilərin xidmət haqları) əvəzinin ödənilməsi;”;

1.5.2. on ikinci abzasa “royalti” sözündən sonra “(müəlliflik qonorarı istisna olmaqla)” sözləri əlavə edilsin;

1.5.3. iyirmi dördüncü abzas aşağıdakı redaksiyada verilsin:

“sığortaedənin işçilərin sosial xarakterli xərclərinin çəkilməsinin nəticəsi kimi əldə edilən gəlirləri, o cümlədən üçüncü tərəfə ödədiyi vəsait.”.

**Maddə 2.** Keçid müddəaları

2.1. Bu Qanunun 1.4.1-ci maddəsi 2021-ci il yanvarın 1-dən qüvvəyə minir və 2026-cı il yanvarın 1-dək qüvvədədir.

2.2. Bu Qanunun 1.4.1-ci maddəsi üzrə 2020-ci il aprelin 1-dən 2021-ci il yanvarın 1-dək məcburi dövlət sosial sığorta dərəcəsi aşağıdakı kimi müəyyən edilir:

sahibkarlıq fəaliyyəti üzrə - minimum aylıq əməkhaqqının tikinti və ticarət sahələrində 25 faizi, digər sahələrdə 15 faizi miqdarının:

Bakı şəhərində 100 faizi;

Sumqayıt və Gəncə şəhərlərində 90 faizi;

digər şəhərlərdə 80 faizi;

rayon inzibati ərazi vahidlərinin inzibati mərkəzi olan inzibati ərazi vahidlərində və qəsəbələrdə 60 faizi;

kənd yerlərində 50 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyirlər.

2.3. Bu Qanunun 1.4.2-ci, 1.4.3-cü və 1.4.6-cı maddələri 2026-cı il yanvarın 1-dək qüvvədədir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2020-ci il*

# “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli 89-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1997-ci il 7 aprel tarixli 568 nömrəli və “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1360-VQD nömrəli Qanununun tətbiqi və “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2018-ci il 21 dekabr tarixli 421 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli 89-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 349; 2006, № 7, maddə 587; 2007, № 12, maddə 1226; 2009, № 8, maddə 630; 2016, № 6, maddə 1021, № 9, maddə 1464; 2018, № 12 (I kitab), maddə 2578; 2019, № 7, maddə 1220) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-1-ci bənddə “və 28-ci” sözləri “, 13.4-cü maddəsində (birinci halda) və 28-ci” sözləri ilə əvəz edilsin;

1.2. 2.2-1-ci bənddə “və 14.7-ci maddələrində “orqan” dedikdə” sözləri “, 14.7-ci maddələrində və 15-ci maddəsinin üçüncü abzasında “orqan (qurum)” dedikdə” sözləri ilə əvəz edilsin;

1.3. 2.3-cü bənd üzrə:

1.3.1. “və altıncı” sözləri “və yeddinci” sözləri ilə əvəz edilsin;

1.3.2. “13.4-cü” sözlərindən sonra “(ikinci halda)” sözləri əlavə edilsin;

1.3.3. “Vergilər Nazirliyi” sözləri “İqtisadiyyat Nazirliyi” sözləri ilə əvəz edilsin;

1.4. 2.4-cü bənd üzrə:

1.4.1. “və altıncı” sözləri “və yeddinci” sözləri ilə əvəz edilsin;

1.4.2. “13.4-cü” sözlərindən sonra “(hər iki halda)” sözləri əlavə edilsin;

1.4.3. “iyirmi üçüncü abzasında” sözləri “üçüncü və iyirmi üçüncü abzaslarında” sözləri ilə əvəz edilsin.

2. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1360-VQD nömrəli Qanununun tətbiqi və “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 421 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2578) 2.2-ci bəndi ləğv edilsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

3.1. “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 13.4-cü maddəsinə uyğun olaraq, məcburi dövlət sosial sığortası məqsədilə sığortaedənlərin və sığortaolunanların uçotu qaydasını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla üç ay müddətində müəyyən etsin;

3.2. “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2020-ci il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249,№ 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.5-ci maddənin 1-ci abzasında "xüsusi vergi rejimi" sözləri "xüsusi və müvəqqəti vergi rejimləri" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"Müvəqqəti vergi rejimi dedikdə, təbii fəlakətlərin, epidemiyaların, epizootiyaların, böyük ekoloji və başqa qəzaların, habelə qlobal iqtisadi mühitdə baş verən hadisələrin təsiri nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar bütün və ya bir qism sahibkarlıq subyektlərinə münasibətdə müəyyən dövr ərzində vergilərin hesablanması və ödənilməsinin müvəqqəti qaydası nəzərdə tutulur.";

1.2. 13.2.83-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 13.2.84-cü maddə əlavə edilsin:

"13.2.84. malların ixrac qeydi ilə satışı - malların ixrac edilməsi məqsədilə istehsalçılar tərəfindən ixracatçılara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada satışı.";

1.3. 22-1.3-cü maddədə "hər il" sözləri "əvvəlki il" sözləri ilə əvəz edilsin;

1.4. 165.1.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 165.1.9-cu maddə əlavə edilsin:

"165.1.9. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada malların ixrac qeydi ilə satışı.";

1.5. aşağıdakı məzmunda XVIII fəsil əlavə edilsin:

**"XVIII fəsil. Koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejimi**

**Maddə 222. Vergi ödəyicilərinin maliyyə vəziyyətinin yaxşılaşdırılması ilə bağlı ümumi müddəalar**

222.1. Bu fəslin müddəaları bu Məcəllənin 222.5-ci maddəsində nəzərdə tutulan fəaliyyəti həyata keçirən vergi ödəyicilərinin, habelə sadələşdirilmiş verginin ödəyicisi olan mikro sahibkarlıq subyektlərinin apardıqları əməliyyatlara tətbiq edilən vergi dərəcələrini, vergi güzəştlərini və azadolmaları, vergilərin ödənilməsi müddətlərini, vergi rejiminin seçilməsi ilə bağlı məsələləri tənzimləyir.

222.2. Bu fəslin müddəaları 2020-ci il yanvarın 1-dən bir il müddətinə tətbiq edilir. Bu maddə ilə müəyyən edilən müddət bitdikdən sonra vergi ödəyicisinin fəaliyyəti üzrə vergi öhdəlikləri, vergi ödəyicisinin hüquq və vəzifələri, vergi ödəyicisinin apardığı əməliyyatlara tətbiq edilən vergi dərəcələri, vergi güzəştləri və azadolmaları, vergilərin ödənilməsi müddətləri bu Məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

222.3. Bu fəslin müddəaları əmtəəsiz və (və ya) riskli əməliyyatlar aparan vergi ödəyicilərinə (əmtəəsiz və (və ya) riskli əməliyyatlar apardığı dövr istisna olmaqla) şamil edilmir. Bu fəslin müddəaları vergi ödəyicisinin riskli vergi ödəyiciləri siyahısından çıxarılması barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarından sonra tətbiq olunur.

222.4. Bu fəslin müddəaları bu Məcəllənin 222.5-ci maddəsində nəzərdə tutulan şəxslərin yalnız həmin fəaliyyət üzrə əməliyyatlarına tətbiq edilir.

222.5. Bu fəslin müddəaları aşağıdakı fəaliyyəti həyata keçirən şəxslərə şamil edilir:

222.5.1. avtomobil nəqliyyatı vasitələri ilə ölkədaxili (şəhərlərarası və rayonlararası, şəhərdaxili və rayondaxili) sərnişin daşımaları (o cümlədən taksi ilə) fəaliyyəti;

222.5.2. yerləşmə vasitələri hesab edilən mehmanxana (hotel) və mehmanxana tipli digər obyektlərin fəaliyyəti;

222.5.3. turoperator və turagent fəaliyyəti;

222.5.4. sifarişlər üzrə malların, o cümlədən yeməklərin, ərzaq və qeyri-ərzaq mallarının satıcılardan alıcılara daşınması və (və ya) çatdırılması fəaliyyəti;

222.5.5. ictimai iaşə fəaliyyəti;

222.5.6. sərgilərin təşkili, səhnə, istirahət və əyləncə (oyun), kinoteatr, teatr, muzey və konsert zallarının fəaliyyəti;

222.5.7. idman-sağlamlıq obyektlərinin fəaliyyəti;

222.5.8. hazırlıq (tədris) və ixtisasartırma kurslarının, məktəbdənkənar təhsil müəssisələrinin, psixoloji mərkəzlərinin fəaliyyəti;

222.5.9. koronavirus pandemiyasının yayılması ilə bağlı əhalinin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə tam və ya qismən məhdudlaşdırılan fəaliyyət sahələri (dövlətə məxsus olan hüquqi şəxslər, büdcə təşkilatları, dövlət büdcəsindən və büdcədənkənar dövlət fondlarından maliyyələşən digər dövlət orqanları (qurumları) istisna olmaqla).

222.6. Koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejiminin (bundan sonra - müvəqqəti vergi rejimi) tətbiq edildiyi vergi ödəyicilərinin hüquq və vəzifələri bu fəsildə başqa hal nəzərdə tutulmamışdırsa, bu Məcəllə ilə müəyyən edilən ümumi qaydada həyata keçirilir.

222.7. Koronavirus pandemiyasının yayılması ilə bağlı iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə tam və ya qismən məhdudlaşdırılmış barəsində səyyar vergi yoxlaması davam etdirilən vergi ödəyicilərində 2020-ci il martın 1-dən yoxlamanın həyata keçirilmədiyi müddətlər bu Məcəllənin 38-ci maddəsi ilə müəyyən edilmiş müddətlərə daxil edilmir.

**Maddə 223. Hesabatların verilməsi və cari vergi ödəmələri**

223.1. Bu Məcəllənin 222.5-ci maddəsində göstərilən fəaliyyəti həyata keçirən şəxslərə, o cümlədən əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən şəxslərə bu Məcəllənin 151-ci və 201-ci maddələrinə uyğun olaraq cari vergi ödəmələri üzrə hesablamaların və cari vergi ödəmələri ilə bağlı arayışların vergi orqanına təqdim edilməsinə dair müddəalar tətbiq edilmir.

223.2. Müvəqqəti vergi rejiminin tətbiq edildiyi mikro sahibkarlıq subyekti olmayan vergi ödəyiciləri əvvəlki il üzrə mənfəət (gəlir) və əmlak vergisi hesabatlarını müvafiq olaraq bu Məcəllənin 149.2-ci və 201.5-ci maddələrinə əsasən təqdim edir, hesablanmış vergini cari ilin sentyabrın 1-dən gec olmayaraq ödəyirlər.

223.3. Mikro sahibkarlıq subyektləri 2020-ci ilin birinci və ikinci rübləri üzrə bu Məcəllənin 221.3-cü maddəsində nəzərdə tutulmuş hesabatı, habelə bu Məcəllənin 149.2-ci və 201.5-ci maddələrində nəzərdə tutulmuş hesabatları cari ilin sentyabrın 1-dək vergi orqanına təqdim edir və hesablanmış vergini cari ilin sentyabrın 1-dən gec olmayaraq ödəyirlər.

**Maddə 224. Azadolmalar və güzəştlər**

224.1. Bu Məcəllənin 222.5-ci maddəsində göstərilən fəaliyyəti həyata keçirən şəxslərə aşağıdakı vergi növləri üzrə güzəşt və azadolmalar tətbiq edilir:

224.1.1. əmlak və torpaq vergiləri üzrə tam məbləğdə;

224.1.2. əldə edilən mənfəətin (gəlirin) 75 faizi;

224.1.3. bu Məcəllənin 222.5.1-ci maddəsində göstərilən fəaliyyəti həyata keçirən şəxslərə bu Məcəllənin 220.5-ci maddəsində müəyyən edilən sadələşdirilmiş vergi məbləği üzrə 50 faiz;

224.1.4. bu Məcəllənin 222.5.5-ci maddəsində göstərilən fəaliyyəti həyata keçirən şəxslərə bu Məcəllənin 220.1-1-ci maddəsi ilə müəyyən edilən sadələşdirilmiş vergi məbləği üzrə 50 faiz.

224.2. Bu Məcəllənin 222.5.4-cü maddəsində göstərilən fəaliyyətlə məşğul olan şəxslərə nəzərdə tutulmuş vergi güzəşti həmin fəaliyyəti həyata keçirən şəxslərə malların daşınmasını və ya çatdırılmasını sifariş etmiş satıcılara münasibətdə və (və ya) satıcıların daşınma və ya çatdırılma nəticəsində əldə edilən gəlirlərinə tətbiq edilmir.

224.3. Bu Məcəllənin 218-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə edən şəxslərə bu Məcəllənin 220.1-ci maddəsində göstərilən dərəcə ilə hesablanan sadələşdirilmiş verginin məbləği 50 faiz azaldılır.

224.4. Müvəqqəti vergi rejimi müddətində əhalinin sağlamlığının və zəruri ərzaq məhsulları ilə ehtiyaclarının təmin edilməsi məqsədilə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məhsul (mal) növlərinin idxalı ƏDV-dən azad edilir.

224.5. Müvəqqəti vergi rejimi müddətində hava nəqliyyatı daşıyıcılarının sərnişindaşıma fəaliyyətində istifadə etdiyi hava gəmiləri əmlak vergisindən azad edilir.

224.6. Bu Məcəllənin 222.5-ci maddəsində göstərilən fəaliyyəti həyata keçirən şəxslər tərəfindən bu Məcəllənin 124-cü maddəsi üzrə fiziki şəxslərdən icarəyə götürülən daşınmaz əmlaklar üzrə ödəmə mənbəyində tutulan verginin məbləği 50 faiz azaldılır.

224.7. Bu Məcəllənin 222.5-ci maddəsində göstərilən fəaliyyəti həyata keçirən şəxslərə vergilərin bu Məcəllə ilə müəyyən edilmiş müddətdə ödənilməməsinə görə bu Məcəllənin 59.1-ci maddəsi ilə müəyyən edilmiş faizlərin hesablanması 2020-ci il aprelin 1-dən 2021-ci il yanvarın 1-dək dayandırılır. Dayandırılmış müddət bu Məcəllənin 59.2-ci maddəsində faizlərin hesablanması üçün müəyyən edilmiş 1 illik müddətə daxil edilmir.

224.8. Bu Məcəllənin 222.5.5-ci maddəsində göstərilən fəaliyyətlə məşğul olan şəxslər tərəfindən alınmış ərzaq və hazırlanmış qida məhsullarının xarab olması 2021-ci il yanvarın 1-dək bu Məcəllənin 159.5-ci maddəsinin məqsədləri üçün vergi tutulan əməliyyat sayılmır.

224.9. Müvəqqəti vergi rejimi müddətində əhalinin həyat və sağlamlığının qorunması məqsədilə vergi ödəyicisi tərəfindən həyata keçirilən zəruri profilaktik, o cümlədən dezinfeksiya tədbirlərinə görə çəkilmiş və bu Məcəllə ilə müəyyən edilmiş qaydada sənədləşdirilmiş xərclər məhdudiyyət nəzərə alınmadan gəlirdən çıxılır.

224.10. Bu Məcəllənin 222.5-ci maddəsində göstərilən fəaliyyəti həyata keçirən şəxslərə bu maddə ilə müəyyən edilən güzəştlər tətbiq edilərkən, cari il üzrə ödənilmiş vergilər, o cümlədən növbəti dövrlər üzrə ödənilən vergilər yenidən hesablanır və artıq ödənilmiş məbləğlər növbəti dövrlərin ödəmələrinə aid edilir.

224.11. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə müvafiq fəaliyyət növlərinin tam və ya qismən məhdudlaşdırıldığı müddət bu Məcəllənin 218.4.4-cü maddəsində nəzərdə tutulan fəaliyyəti həyata keçirən şəxslərin əldə etdikləri qəbzlərin qüvvədəolma müddətinə daxil edilmir və ödənilmiş vergilər növbəti ayların ödəmələrinə aid edilir.

**Maddə 225. Sadələşdirilmiş verginin tətbiqi**

225.1. ƏDV qeydiyyatında olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər cari ilin sentyabrın 1-dən gec olmayaraq, sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə edəcəyi barədə yazılı məlumatı qeydiyyatda olduğu vergi orqanına təqdim edir. Bu zaman vergi ödəyicisi ərizə ilə müraciət etdiyi tarixdən etibarən sadələşdirilmiş verginin ödəyicisi kimi fəaliyyət göstərir və təqdim edilən mallara (işlərə, xidmətlərə) müvəqqəti vergi rejiminin müddəaları tətbiq edilir.

225.2. Bu maddədə göstərilən şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə etdikdə, vergi ödəyicisi ƏDV qeydiyyatının ləğv edilməsi ilə bağlı bu Məcəllənin 158.1-ci maddəsinə uyğun olaraq ərizə təqdim edir və bu zaman kapital xarakterli xərclərin çəkilməsinə görə ödənilmiş ƏDV məbləğləri istisna olmaqla, ictimai iaşə fəaliyyəti üçün alınmış mallara (işlərə, xidmətlərə) görə əvəzləşdirilmiş ƏDV-nin məbləği yenidən hesablanır.

225.3. Bu Məcəllənin 222.2-ci maddəsi ilə müəyyən edilən müddət bitdikdən sonra vergi ödəyicisi ƏDV qeydiyyatında fəaliyyətini davam etdirərkən, sahibliyində qalan bu Məcəllənin 225.2-ci maddəsində göstərilən mallar barədə vergi orqanına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş formada məlumat təqdim edir. Təqdim edilən məlumatda göstərilən malların sonradan təqdim edilməsi, o cümlədən ictimai iaşə xidmətlərinin tərkibi kimi silinməsi ƏDV tutulan dövriyyə hesab edilmir.

225.4. Vergi ödəyicisi növbəti hesabat ilində bu Məcəllənin 218.1.2-ci və 218.2-ci maddələrinə uyğun olaraq sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etdikdə o, müvəqqəti vergi rejimində fəaliyyət göstərmədiyindən kapital xarakterli xərclərin çəkilməsinə görə ödənilib əvəzləşdirilmiş ƏDV məbləğləri yenidən hesablanır.".

**Maddə 2. Keçid müddəası**

Bu Qanunun 1.3-cü maddəsi 2020-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2020-ci il*

# "Nəqliyyat haqqında", "Aviasiya haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1588-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 399; 2000, № 7, maddə 486; 2001, № 12, maddə 731; 2002, № 5, maddə 241; 2008, № 11, maddə 957; 2011, № 7, maddə 610; 2014, № 4, maddə 335; 2017, № 12 (I kitab), maddə 2212; 2019, № 6, maddə 988) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddənin dördüncü abzasında "ödəniş və ya muzdla" sözləri "haqq müqabilində" sözləri ilə və "hüququ və ya başqa qanuni əsaslarla" sözləri "və ya istifadə hüququ ilə" sözləri ilə əvəz edilsin;

1.2. 9-cu maddənin 3-cü hissəsinin birinci abzasına "yükgöndərən" sözündən sonra "və ya onun səlahiyyətləndirdiyi digər şəxs" sözləri əlavə edilsin;

1.3. 19-cu maddəyə aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3. Nəqliyyat-ekspedisiya xidmətləri ilə əlaqədar ekspeditora qarşı yaranan tələblər üzrə iddia qaldırılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 861.2-ci maddəsinə uyğun həyata keçirilir.".

**Maddə 2.** "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 689; 2007, № 12, maddə 1218; 2009, № 12, maddə 948; 2011, № 3, maddə 169; 2015, № 1, maddə 10, № 2, maddə 95; 2016, № 10, maddə 1604; 2017, № 3, maddə 338, № 5, maddə 693; 2018, № 10, maddə 1960, № 12 (I kitab), maddə 2514; 2019, № 6, maddə 989) aşağıdakı məzmunda 48.5-1-ci maddə əlavə edilsin:

"48.5-1. Yükgöndərən daşıma müqaviləsinin lazımınca icrası üçün yükə aid olan sənədləri və digər məlumatları daşıyıcıya təqdim etməlidir. Yükgöndərən bu məlumatların və sənədlərin olmaması və dəqiqsizliyi nəticəsində dəyən zərərin əvəzini ödəyir.".

**Maddə 3.** "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 599; 2010, № 4, maddə 276, № 10, maddə 841; 2013, № 11, maddə 1302; 2014, № 4, maddə 342; 2015, № 8, maddə 903, № 12, maddə 1439; 2016, № 2 (II kitab), maddə 221; 2017, № 2, maddə 140, № 12 (I kitab), maddə 2211; 2018, № 1, maddə 22, № 12 (I kitab), maddələr 2510, 2517; 2019, № 3, maddə 374, № 8, maddə 1379) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.0.9-cu maddəyə "əsaslarla" sözündən sonra "haqq müqabilində" sözləri, "yerinə yetirən" sözlərindən sonra ", mülkiyyət, icarə və ya istifadə hüququ ilə nəqliyyat vasitələrinə malik olan" sözləri əlavə edilsin;

3.2. 14-cü maddə üzrə:

3.2.1. 14.1.2-ci maddədə "hüququ və ya digər qanuni əsaslarla" sözləri ", icarə və ya istifadə hüququ ilə" sözləri ilə əvəz edilsin;

3.2.2. 14.2.4-cü maddədə "və digər qanuni əsaslarla sərəncamında" sözləri ", icarəsində və ya istifadəsində" sözləri ilə əvəz edilsin;

3.2.3. 14.2.5-ci maddədə "və digər qanuni əsaslarla istifadə (icarə, etibarnamə və s.)" sözləri ", icarə və ya istifadə" sözləri ilə əvəz edilsin;

3.3. 27.2-ci maddədə "və ya digər qanuni əsaslarla istifadəsində (icarə, etibarnamə və s.)" sözləri ", icarəsində və ya istifadəsində" sözləri ilə əvəz edilsin;

3.4. 37.1-ci maddəyə "təyinat məntəqəsinə" sözlərindən əvvəl "haqq müqabilində olduğu yerdən" sözləri əlavə edilsin və həmin maddədə "yükgöndərən isə, müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa," sözləri "yükgöndərən, yükalan və ya onların səlahiyyətləndirdiyi digər şəxs isə" sözləri ilə əvəz edilsin;

3.5. 58.1-ci maddəyə "əvvəl" sözündən sonra "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 861-ci maddəsi," sözləri əlavə edilsin.

**Maddə 4.** "Dəniz limanları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 464; 2019, № 6, maddə 990) 3.1.21-ci maddəsinə "əsaslarla" sözündən sonra "haqq müqabilində" sözləri, "yerinə yetirən" sözlərindən sonra ", mülkiyyət, icarə və ya istifadə hüququ ilə nəqliyyat vasitələrinə malik olan" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2020-ci il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli 90-VIQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli 90-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.84-cü və 165.1.9-cu maddələrində, 222.3-cü maddəsinin ikinci cümləsində, 222.5.9-cu, 222.7-ci, 224.4-cü, 224.11-ci maddələrində və 225.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 224.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 13.2.84-cü, 165.1.9-cu, 222.5.9-cu, 222.7-ci və 224.11-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 222.3-cü maddəsinin ikinci cümləsində və 225.3-cü maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.84-cü və 165.1.9-cu maddələrinə uyğun olaraq, malların ixrac qeydi ilə satışı qaydasını Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təklifləri əsasında üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. həmin Məcəllənin 224.4-cü maddəsinə uyğun olaraq, əhalinin sağlamlığının və zəruri ərzaq məhsulları ilə ehtiyaclarının təmin edilməsi məqsədilə idxalı ƏDV-dən azad olunan məhsul (mal) növlərinin siyahısı ilə bağlı təklifləri bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanında, 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də və 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1628-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 498; 2007, № 11, maddə 1114; 2009, № 12, maddə 977; 2011, № 2, maddə 84; 2014, № 3, maddə 242; 2017, № 6, maddə 1116, № 7, maddə 1317) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci - yeddinci abzaslar müvafiq olaraq dördüncü - doqquzuncu abzaslar hesab olunsun və aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 7-1-ci maddəsinin ikinci və üçüncü hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

həmin Qanunun 7-1-ci maddəsinin ikinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

1.2. dördüncü abzasda "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin Qanunun" sözləri ilə əvəz edilsin;

1.3. doqquzuncu abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

"həmin Qanunun 7-1-ci maddəsinin üçüncü hissəsində "orqan (qurum)" dedikdə, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, digər tibb müəssisələrinə münasibətdə isə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur.".

2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411, № 8, maddə 680; 2007, № 6, maddə 602, № 8, maddə 770, № 10, maddə 947; 2008, № 7, maddə 612, № 11, maddələr 967, 970; 2009, № 10, maddə 779, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 7, maddə 688, № 9, maddə 855; 2013, № 2, maddə 114, № 6, maddə 651, № 9, maddələr 1060,1061; 2016, № 3, maddə 436; 2017, № 10, maddə 1781; 2018, № 2, maddə 217, № 5, maddə 932, № 10, maddə 1990; 2019, № 12, maddə 1953) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.13-3-cü bənd əlavə edilsin:

"8.13-3. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələri istisna olmaqla, digər tibb müəssisələrinin akkreditasiyasını həyata keçirmək;".

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1639; 2019, № 2, maddə 219) ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 3.1.11-1-ci yarımbənd əlavə edilsin:

"3.1.11-1. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (bundan sonra -TƏBİB) tabeliyindəki tibb müəssisələrinin akkreditasiyasını həyata keçirir;

3.2. 4.5.11-ci yarımbəndin 1-ci abzasında "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (bundan sonra - TƏBİB) publik hüquqi şəxsin" sözləri "TƏBİB-in" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2020-ci il*

## Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda mövcud olan mədəni müxtəliflik və yüksək tolerantlıq mühiti əsrlərdən bəri burada ayrı-ayrı xalqların, fərqli konfessiyaların nümayəndələrinin qarşılıqlı hörmət şəraitində yanaşı yaşamasının bariz nümunəsidir. Cəmiyyətdə qarşılıqlı mənəvi zənginləşmə üçün möhkəm bünövrə rolunu oynayan etnik-dini rəngarəngliyin qorunub saxlanmasının müstəqil dövlətçiliyin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2,0 (iki) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150,0 (yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150,0 (yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150,0 (yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100,0 (yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2020-ci il*

## Azərbaycan Respublikası mülki aviasiya işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda mülki aviasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**2-ci dərəcəli "Əmək" ordeni ilə**
Hacıyev Eldar Əli oğlu
Hüseynov Etibar Xudaverdi oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**
Tibilov Zaxar Konstantinoviç

**"Tərəqqi" medalı ilə**
Dupikova Nataliya Nikolayevna
Əfəndiyev Arif Xanməmməd oğlu
Əliyev Fariz Fəhrəddin oğlu
Həsənov Xaqani Mikayıl oğlu
Knyazev Vitaliy Vitalyeviç
Quliyev Fuad Hidayət oğlu
Manizadə Cəmil Fəxrəddin oğlu
Məmmədov Tahir Məmməd oğlu
Məmmədov Teymur Namik oğlu
Rəfi-zadə Murad Rüfət oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2020-ci il*

## Azərbaycan Respublikasının mülki aviasiya işçilərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda mülki aviasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar mühəndis"**

Səfərov Emin Nadir oğlu

**"Əməkdar pilot"**

Əliyev Hacıağa Muxtar oğlu
Əlizadə Sadıx Pərviz oğlu
Hidayətov Ramiz Rasim oğlu
Novruzov Əkbər Mühüddin oğlu
Sadıxov Vaqif Fazil oğlu
Truxanov Vasiliy Pavloviç.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2020-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına Qətər Dövlətinin xalqı adından və şəxsən öz adımdan səmimi salamlarımızı və təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək zati-alinizə möhkəm cansağlığı və rifah, Azərbaycan xalqına tərəqqi və firavanlıq, həmçinin ölkələrimizin ikitərəfli əlaqələrinin gələcək illərdə daha da möhkəmlənməsini arzulayıram.

*Sizə ən yüksək ehtiramla,*

***Şeyx Təmim bin Həməd Al TANİ,***
***Qətər Dövlətinin Əmiri***

* * *

Zati-aliləri, cənab Prezident.

Milli bayramınız - Respublika Günü münasibətilə zati-alinizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Monqolustan ilə Azərbaycan arasında qarşılıqlı maraq doğuran bütün sahələrdə əlaqələrin möhkəmlənməsində Sizinlə davamlı əməkdaşlıqdan məmnunluğumu bildirirəm. Sizə böyük məmnuniyyətlə məlumat verirəm ki, bu ilin yanvar ayında Davos Dünya İqtisadi Forumu çərçivəsində görüşümüz zamanı ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafı ilə bağlı apardığımız müzakirələrin nəticəsi olaraq bizim nümayəndə heyətimiz Bakıda uğurla işləyib. Dağ-mədən, kənd təsərrüfatı və yüngül sənaye sahələrində əməkdaşlıq və təcrübə mübadiləsinə dair danışıqlar müvəffəqiyyətlə davam edir. Cənab Prezident, əminəm ki, Siz bu səyləri dəstəkləməkdə davam edəcəksiniz.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə əmin-amanlıq və rifah diləyirəm.

*Dərin hörmətlə,*

***Xaltmaaqiyn BATTULQA,***
***Monqolustanın Prezidenti***

* * *

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuruq.

Fürsətdən istifadə edərək Sizə xoşbəxtlik və möhkəm cansağlığı, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayırıq.

*Hörmətlə,*

***Heytəm bin Tariq Al SƏİD,***
***Omanın Sultanı***

* * *

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi və böyük xalqınızın tərəqqisi, firavanlığı üçün ən xoş arzularımı çatdırmaqdan şərəf hissi duyuram.

*Hörmətlə,*

***Danilo MEDİNA,***
***Dominikan Respublikasının Prezidenti***

* * *

Zati-aliləri.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Yamayka hökuməti və xalqı adından Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Diplomatik əlaqələrin qurulduğu ötən 24 il ərzində Yamayka və Azərbaycan arasında səmimi münasibətlər formalaşıb. Bu münasibətlərin gələcək illərdə ikitərəfli və çoxtərəfli formatda möhkəmlənməsi imkanlarının genişlənməsinə ümid edirik.

Cənab Prezident, xahiş edirəm, Azərbaycan xalqına davamlı sülh və firavanlıq arzularımı qəbul edin.

*Hörmətlə,*

***Endryu HOLNESS,***
***Yamaykanın Baş Naziri***

* * *

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi salamlarımı və təbriklərimi çatdırmaq istəyirəm.

Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

*Ən yüksək ehtiramla,*

***Abdullah bin Həməd Al TANİ,***
***Qətər Dövləti Əmirinin müavini***

## MDB dövlətləri ərazilərinin sanitar mühafizəsi problemləri üzrə Əlaqələndirmə Şurasının iclası keçirilib

Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin ərazilərinin sanitar mühafizəsi problemləri üzrə Əlaqələndirmə Şurası videokonfrans rejimində növbədənkənar iclas keçirib.

AZƏRTAC xəbər verir ki, iclas iştirakçıları yeni koronavirus infeksiyasının yayılmasına qarşı mübarizə, infeksion xəstəliklərin profilaktikası üzrə birgə fəaliyyət planının hazırlanması məsələlərini nəzərdən keçiriblər.

MDB Hökumət Başçıları Şurasının mayın 29-da keçirilmiş iclasının qərarlarını, o cümlədən MDB iştirakçısı olan dövlətlərin infeksion xəstəliklərin yayılmasına qarşı mübarizə üzrə ortamüddətli birgə fəaliyyət planının hazırlanması barədə qərarının yerinə yetirilməsinin gedişi müzakirə olunub. Epidemiyalara qarşı mübarizə üzrə kollektiv potensialın artırılmasını nəzərdə tutan sənədin layihəsi "Rospotrebnadzor" tərəfindən hazırlanacaq və tərəfdaşlara göndəriləcək.

Videokonfrans zamanı MDB ölkələrində infeksiyanın yayılması sürətinin daha da azaldılmasına yönəlmiş epidemiya əleyhinə tədbirlər də müzakirə edilib. Vurğulanıb ki, koronavirusa və digər infeksion xəstəliklərə qarşı mübarizə məqsədilə sanitar-epidemioloji xarakterli fövqəladə vəziyyətlərə operativ münasibət bildirmək üçün vahid sistem yaradılması üzrə tərəfdaşlarla qarşılıqlı fəaliyyət davam etdiriləcək.

**Milli Məclisin iclasında**

# Maska taxmayanlara qarşı cəzalar qüvvəyə mindi






*Əvvəli 1-ci səh.*

Deputat Eldar Quliyev qanunların icrasına nəzarətlə bağlı ayrıca qurumun yaradılmasını təklif etdi. Eldar Quliyev həmçinin sosial şəbəkələrdə insan ləyaqətinin tapdalanmasının qarşının alınması üçün qanunlarda dəyişikliklər olunmasını vacib saydı.

Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov da təmsil etdiyi dairədəki su çatışmazlığından danışdı.

Milli Məclisin Sədri Sahibə Qafarova bu problemin təmsil etdiyi Şəmkir rayonunda da olduğunu və bununla bağlı işlərin görüləcəyini bildirdi.

Deputat Cavanşir Paşazadə pay torpaqları ilə bağlı qanunun işlək hala gətirilməsinə ehtiyac olduğunu dedi. Deputat suvarma probleminin təmsil etdiyi bölgədə də olduğunu bildirdi: "Lənkəran sitrusçuluq və çayçılıqla məşğul olan bölgədir. Xalq cəbhəsi dövründə çayçılıqla bağlı olan torpaq sahələri məhv edildi. Suvarma problemi isə bu gün də həmin bölgədə qalmaqdadır. Su problemi çayçılığın inkişafına bu gün də mane olur. Su anbarları 60 il əvvəl tikilib, artıq lillə dolub. Anbarları təmizləmək lazımdır".

"Son günlər sosial şəbəkələrdə şəhid ailələri və qazilərimizin təhqirlərə məruz qaldığının şahidi oluruq". Bunu isə Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirdi. Onun sözlərinə görə, Azərbaycanda şəhid və qazi ailələrinə dövlətin və Prezidentin xüsusi qayğısı var: "Bu gün şəhid ailələrinin heç nəyə ehtiyacı yoxdur. Onların sadəcə xüsusi diqqətə ehtiyacı var. O insanların hər biri bizim diqqət mərkəzimizdə olmalıdır".

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, deputatlardan Razi Nurullayev, Şahin İsmayılov, Məlahət İbrahimqızı, Jalə Əliyeva, Ramil Həsən, Qüdrət Həsənquliyev, Sahib Alıyev, Vüqar Bayramov, Nəsib Məhəməliyev, Aqiyə Naxçıvanlı bir sıra məsələlərlə bağlı fikirlərini bildirdilər, təkliflərlə çıxış etdilər. Çıxışlarda aqrar sahədə vəziyyət, suvarma sistemlərinin yenilənməsi, sosial şəbəkələrdəki mövcud qanunsuzluqların aradan qaldırılması barədə fikirlər səsləndirildi.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başladı. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Qanununun layihəsi barədə (üçüncü oxunuş) Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Fəzail Ağamalı məlumat verdi. Sənəd pandemiya dövründə sanitar-gigiyena qaydalarının tələblərinin pozulmasına görə inzibati tənbeh hallarını müəyyən edir və bu dövrdə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı tələblərin pozulmasına görə cərimələri müəyyənləşdirir. Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Ünvanlı dövlət sosial yardımı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (üçüncü oxunuş) məlumat verdi. Bildirildi ki, qanun layihəsinin 2-ci oxunuşda Milli Məclisdə müzakirəsi zamanı verilən təkliflərə işçi qrupu tərəfindən baxılıb. Komitə sədri vurğuladı ki, dəyişikliklərin hamısı humanist məqsədlərə xidmət edir, ölkə Prezidentinin ünvanlı sosial yardımın çevrəsini daha da genişləndirmək, əlçatanlığı asanlaşdırmaq, şərtləri yumşaltmaq barədə tövsiyələri əsasında hazırlanıb. Qanun layihəsi üçüncü oxunuşda qəbul olundu.

İclasda son olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Qanununun layihəsi (üçüncü oxunuş) müzakirəyə çıxarıldı. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov bildirdi ki, qanun layihəsi "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli qanununun icrası ilə əlaqədar hazırlanıb. Deputat bildirdi ki, qanunun əvvəlki oxunuşlarda parlamentdə müzakirələri zamanı deputatlar tərəfindən heç bir yeni təklif qeydə alınmamışdır. Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib

İyunun 2-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Tahir Mirkişili iclasda "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının qanun layihəsinin birinci oxunuşda müzakirə olunacağını bildirdi.



Qeyd edildi ki, "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi və müvafiq hesabat "Büdcə sistemi haqqında" qanunun 20.2-1-ci maddəsinə əsasən hazırlanıb. Hesabat 2019-cu ildə Azərbaycanda formalaşmış makroiqtisadi mühiti, dövlət maliyyəsinin idarə olunmasının təkmilləşdirilməsi, o cümlədən yeni büdcə qaydasının tətbiqi və onun nəticələri, 2019-cu il dövlət büdcəsində nəzərdə tutulan gəlir və xərclərin icra göstəriciləri, il ərzində dövlət borclanmasına dair vəziyyəti və digər zəruri məlumatları özündə əks etdirir.

Tahir Mirkişili qeyd etdi ki, 2019-cu il Azərbaycanda ən sürətli, əhatəli islahatlar ili kimi yadda qaldı. 2018-ci ildə keçirilmiş seçkilərdə yenidən xalq tərəfindən Prezident seçilmiş cənab İlham Əliyev andiçmə mərasimindəki proqram xarakterli çıxışında böyük islahatlara start verəcəyini bildirmişdi. Əvvəlki illərdə də ölkəmizdə bir çox islahatlar həyata keçirilib. Lakin indiyədək heç bir ildə 2019-cu ildə olduğu kimi eyni vaxtda bir neçə istiqamətdə, kompleks halda və genişmiqyaslı addımlar atılmamışdı.

Aparılan iqtisadi islahatlar sürətli və inklüziv iqtisadi inkişafla nəticələndi. Belə ki, qeyri-neft sənayesinin istehsalının 14 faiz, kənd təsərrüfatı istehsalının 7,3 faiz, əhalinin real gəlirlərinin 4,7 faiz, orta aylıq əməkhaqlarının 14 faiz artması islahatların nəticələrinin qısa müddət ərzində iqtisadi subyektlər və əhali tərəfindən hiss edilməsinə səbəb oldu.

Şəffaflıq səviyyəsinin artırılması və kölgə iqtisadiyyati ilə aparılan mübarizə öz effektiv təsirini göstərdi, büdcə gəlirlərinin proqnozdan artıq icra olunmasına şərait yaratdı. 2019-cu ildə iqtisadiyyatın idarəetmə mexanizmində köklü struktur və kadr dəyişiklikləri aparıldı, çevik və əhatəli idarəetmə üçün təşkilati zəmin yaradıldı.

Bütün bu müsbət nəticələr dövlət başçısı tərəfindən mühüm sosial islahatların həyata keçirilməsinə də imkan yaratdı. Belə ki, 2019-cu ildə ilk dəfə olaraq minimum əməkhaqqı 2 dəfə artırılaraq yaşayış minimumunu keçmiş, minimum pensiya təminatı 200 manata çatdırılmış, müavinət və əməkhaqları isə artırılmışdır. Bu mühüm sosial paket 4,2 milyon insanı əhatə etməklə 2,3 milyard vəsait hesabına yerinə yetirildi. Təqdirəlayiq haldır ki, bu həcmdə işlər büdcənin imkanları hesabına yerinə yetirildi və inflyasiyanın proqnozlaşdırıldığından aşağı olmasına səbəb oldu.

2019-cu ildə problemli kreditlərin həlli üçün həm əhaliyə, həm də banklara dövlət tərəfindən mühüm dəstək göstərildi və problemin həlli üçün müvafiq vəsait ayrıldı. Bütün bunlarla yanaşı, bank sektorunda sağlamlaşma prosesi bu gün də davam edir. Əlverişli iqtisadi zəmin büdcənin uğurla icrasına şərait yaratsa da, büdcənin də icrası iqtisadi artıma dəstək verdi.

Komitə sədri 2019-cu il büdcəsinin yeni büdcə qaydalarına uyğun hazırlanmış ilk büdcə olduğunu vurğuladı.

İclasda iştirak edən Maliyyə naziri Samir Şərifov Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası barədə hesabatı təqdim etdi. Diqqətə çatdırdı ki, 2019-cu ildə makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi, iqtisadi artımın sürətlənməsi və fiskal dayanıqlılığın gücləndirilməsi fonunda ölkədə əlverişli xarici iqtisadi mövqe formalaşıb, qeyri-neft sektorunun ixrac potensialı genişlənib. Milli valyutanın mübadilə məzənnəsinin sabitliyi qorunub, təkrəqəmli inflyasiya səviyyəsinə nail olunub, bütövlükdə iqtisadiyyatda 2,2 faiz real artımla 81,7 milyard manat dəyərində ümumi daxili məhsul (ÜDM) istehsal edilib. Adambaşına düşən ÜDM-in həcmi isə 8247,0 manat təşkil edir.

Qeyd edildi ki, iqtisadiyyatın qeyri-neft sektorunda 2018-ci illə müqayisədə 3,5 faiz real artım əldə edilib. Qeyri-neft ÜDM-in tərkibində aparıcı rola malik kənd təsərrüfatında 7,3 faiz, turizmdə 6,4 faiz, nəqliyyat sektorunda isə 1,0 faiz real artım müşahidə edilir.

2019-cu ildə ÜDM-in pay bölgüsündə ən böyük (41,4 faiz) çəkiyə malik sənayedə 33,8 milyard manatlıq, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 4,7 milyard manatlıq (xüsusi çəkisi 5,7 faiz), tikintidə 5,9 milyard manatlıq (xüsusi çəkisi 7,3 faiz) əlavə dəyər istehsal edilib. Xidmət sahələrinin istehsalında yaranan əlavə dəyər ÜDM-in 36,9 faizini təşkil edib. Əhalinin nominal gəlirlərinin həcmi 2018-ci ilə nisbətən 7,4 faiz artaraq 57,0 milyard manata çatıb, hər nəfərə düşən gəlir 6,5 faiz artaraq 5758,6 manat olub ki, bu da orta hesabla ayda 479,9 manata bərabərdir. Ölkə üzrə orta aylıq əməkhaqqı 2018-ci illə müqayisədə 16,6 faiz artaraq 634,8 manat təşkil edib.

Dövlətin valyuta ehtiyatlarının həcmi hesabat ilində 6,6 milyard ABŞ dolları artaraq 2020-ci ilin 1 yanvar tarixinə 51,1 milyard ABŞ dollarına çatmaqla ümumi daxili məhsulu 6,3 faiz üstələyib.

Bildirildi ki, 2019-cu ildə dövlət büdcəsinin gəlirləri 23168,0 milyon manat proqnoza qarşı 24218,1 milyon manat təşkil edib. Proqnozla müqayisədə 1050,1 milyon manat və ya 4,5 faiz, 2018-ci illə müqayisədə isə 1709,2 milyon manat və ya 7,6 faiz çox icra təmin olunub.

Büdcənin gəlirlərinin 7672,3 milyon manatı və 31,7 faizi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, 4408,6 milyon manatı və ya 18,2 faizi Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 11364,3 milyon manatı və ya 46,9 faizi Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin, 772,9 milyon manatı və ya 3,2 faizi digər gəlirlərin (578,9 milyon manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən, 182,6 milyon manatı sair daxilolmalardan, 11,4 milyon manatı dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə verilməsindən daxilolmalardan) payına düşür.

Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert nəzərə alınmadan 2019-cu ildə dövlət büdcəsinin gəlirləri 12853,8 milyon manat təşkil edib ki, bu da 2018-ci illə müqayisədə 1303,9 milyon manat və ya 11,3 faiz çoxdur.

Diqqətə çatdırıldı ki, 2019-cu il dövlət büdcəsinin xərcləri 25190,0 milyon manat proqnoza qarşı 24425,9 milyon manat və ya 97,0 faiz icra edilib. 2018-ci ilə nisbətən bu göstərici 1694,3 milyon manat və ya 7,5 faiz çoxdur.

2019-cu il dövlət büdcəsi xərclərinin 13528,9 milyon manatı və ya 55,4 faizi cari xərclərə (2018-ci illə müqayisədə 1974,5 milyon manat və ya 17,1 faiz çox), 9372,2 milyon manatı və ya 38,4 faizi əsaslı xərclərə (2018-ci illə müqayisədə 430,6 milyon manat və ya 4,8 faiz çox), 1524,8 milyon manatı və ya 6,2 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilib.

Qeyd olundu ki, 2019-cu il dövlət büdcəsi xərclərinin 31,8 faizi və ya 7761,3 milyon manatı sosialyönümlü xərclərin maliyyələşdirilməsinə yönəldilib və bu 2018-ci illə müqayisədə 564,8 milyon manat və ya 7,8 faiz çoxdur.

Ölkə əhalisinin sosial müdafiəsinin daha da möhkəmləndirilməsi istiqamətində 2019-cu ildə bir sıra mühüm qərarlar qəbul edilib, sosial müavinət və təqaüdlər orta hesabla 92,0 faiz, minimum pensiyanın məbləği 72,0 faiz, minimum əməkhaqqı 92,0 faiz artırılıb.

Eyni zamanda, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə müəyyən edilmiş vahid aylıq müavinətin məbləği 2019-cu il aprel ayının 1-dən 50 faiz artırılıb. Bu sosial tədbirin maliyyə təminatı 83,0 milyon manat təşkil edib, artım 500 min nəfər əhalini əhatə edib.

***Ardı 6-cı səh.***

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib

*Əvvəli 5-ci səh.*

Ölkədə fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı ümumilikdə 639,0 milyon manat kompensasiya məbləğinin bankların, ləğvetmə prosesində olan bankların və poçt operatorunun Mərkəzi Bankdakı hesablarına köçürülməsi təmin edilib. Fiziki şəxslərin problemli kreditlərinin restrukturizasiyası məqsədilə kredit təşkilatlarına Mərkəzi Bank tərəfindən ayrılmış 214,8 milyon manat məbləğində kredit vəsaitləri dövlət zəmanəti ilə təmin edilib.

2019-cu ildə elm xərclərinə dövlət büdcəsi xərclərinin 0,5 faizi həcmində və ya 122,3 milyon manat vəsait yönəldilib ki, bu 2018-ci illə müqayisədə 4,5 milyon manat və 3,8 faiz çoxdur. Təhsil xərclərinə dövlət büdcəsi xərclərinin 10,2 faizi həcmində və ya 2489,8 milyon manat vəsait yönəlib ki, bu 2018-ci illə müqayisədə 272,9 milyon manat və ya 12,3 faiz çoxdur. Səhiyyə xərclərinə dövlət büdcəsi xərclərinin 3,9 faizi həcmində və ya 948,2 milyon manat vəsait yönəldilib, bu da 2018-ci illə müqayisədə 71,9 milyon manat və ya 8,2 faiz çoxdur.

Hesabat ilində sosial müdafiə və sosial təminat xərclərinə dövlət büdcəsi xərclərinin 9,8 faizi həcmində və ya 2401,0 milyon manat vəsait yönəldilib ki, bu da 2018-ci illə müqayisədə 60,1 milyon manat və ya 2,6 faiz çoxdur. Sosial müdafiə və sosial təminat xərcləri üzrə istifadə olunmuş vəsaitin 2243,1 milyon manatı və ya 98,3 faizi sosial müdafiə (2018-ci illə müqayisədə 123,5 milyon manat və ya 5,8 faiz çox), 38,0 milyon manatı və ya 1,7 faizi sosial təminat (2018-ci illə müqayisədə 6,8 milyon manat və ya 21,9 faiz çox) xərclərinə yönəldilib.

Diqqətə çatdırıldı ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinə birdəfəlik müavinətlər üzrə 102,6 milyon manat məbləğində vəsait ödənilib. Müvəqqəti iş yerlərinin maliyyələşdirilməsi üçün Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dövlət büdcəsindən 80,0 milyon manat vəsait yönəldilib. Habelə qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması, onların bir qisminin istifadə etdikləri kommunal xidmət haqlarının dövlət büdcəsi hesabına ödənilməsi üçün 2019-cu ilin icmal və dövlət büdcələrindən üst-üstə 494,3 milyon manat vəsait ayrılıb.

2019-cu ildə mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət xərclərinə dövlət büdcəsi xərclərinin 2,5 faizi həcmində və ya 599,7 milyon manat vəsait yönəldilib.

Müdafiə xərclərinə dövlət büdcəsi xərclərinin 13,7 faizi həcmində vəsait yönəldilib, bu da 2018-ci illə müqayisədə 0,6 faiz çoxdur.

Bildirildi ki, 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 296,7 milyon manat vəsait istifadə olunub. İstifadə olunmuş vəsaitin 237,3 milyon manatı və ya 80,0 faizi əsaslı vəsait qoyuluşu xərclərinin, 59,4 milyon manatı və ya 20,0 faizi cari xərclərin maliyyələşdirilməsinə yönəldilib. Cari xərclərə yönəldilən vəsaitin 14,5 milyon manatı və ya 24,4 faizi sosialyönümlü tədbirlərin maliyyə təminatına sərf edilib.

Beynəlxalq fəaliyyət, beynəlxalq maliyyə-kredit təşkilatlarına və ictimai-siyasi təşkilatlara üzvlük haqqı, beynəlxalq və ölkə səviyyəli tədbirlər, Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti, xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələri və xarici qrantlar hesabına həyata keçirilən layihələrlə bağlı xərclər üzrə 2019-cu ilin dövlət büdcəsindən 246,7 milyon manat vəsait yönəldilib.

Regionların davamlı inkişafının təmin olunması, ölkə iqtisadiyyatının neft sektorundan asılılığının mərhələlərlə azaldılması, müasir tələblərə uyğun infrastrukturların yaradılması, əhalinin rifah halının, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, ölkədə sosial xidmətlərə olan tələblərin ödənilməsi və dövlətin digər funksiyalarının həyata keçirilməsi üzrə qəbul olunmuş dövlət proqramlarının və tədbirlərin icrası 2019-cu ildə də davam etdirilib və həmin məqsədlərə 5270,5 milyon manat vəsait yönəldilib.

2019-cu ildə dövlət büdcəsinin yerli gəlirləri 738,8 milyon manat proqnoza qarşı 884,9 milyon manat məbləğində və ya 19,8 faiz çox icra olunub. 2018-ci ilə nisbətən isə yerli gəlirlər 166,5 milyon manat və ya 23,2 faiz çox olub. Dövlət büdcəsinin yerli xərcləri isə 842,8 milyon manat proqnoza qarşı icra 802,6 milyon manat və ya 95,2 faiz olub. 2019-cu il üzrə yerli xərclərin məbləği 2018-ci ilə nisbətən 103,6 milyon manat və ya 14,8 faiz çox olub.

Hesabata əsasən, 2019-cu ilin dövlət büdcəsində 207,8 milyon manat məbləğində kəsir (defisit) yaranıb ki, bu da proqnozlaşdırılan 2022,0 milyon manat kəsirdən 1814,2 milyon manat və ya 9,7 dəfə azdır.

2020-ci il 1 yanvar tarixinə vahid xəzinə hesabının sərbəst qalığı 2342,2 milyon manat, o cümlədən manatla 952,8 milyon manat və xarici valyutaların manat ekvivalenti ilə 1389,4 milyon manat təşkil edib.

2019-cu il icmal büdcənin gəlirləri 29234,8 milyon manat proqnoza qarşı 16,2 faiz çox və ya 33966,7 milyon manat, xərcləri isə 27370,9 milyon manat məbləğində olmaqla proqnozun 96,8 faizini və ya 26506,1 milyon manatını təşkil edib.

2019-cu ilin icmal büdcəsi 1863,9 milyon manat büdcə artıqlığı (profisit) ilə proqnozlaşdırılsa da, faktiki artıqlıq 7460,6 milyon manat və ya ÜDM-in 9,1 faizi həcmində (proqnoza nisbətən 6,8 faizbənd çox) olub. Azərbaycan Respublikası Dövlət Neft Fondunun gəlirləri nəzərə alınmadan icmal büdcədə 11570,0 milyon manat kəsir qeydə alınıb, bu da 2019-cu ilin ÜDM-nin 14,3 faizini təşkil etməklə, proqnozlaşdırılmış həddən 3,0 faiz-bənd azdır.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2019-cu ilin dövlət büdcəsinin icrası ilə bağlı rəhbərlik etdiyi qurumun rəyini diqqətə çatdırdı.

İqtisadiyyat Nazirliyinin Makroiqtisadi proqnozlaşdırma və təhlil şöbəsinin müdiri Yalçın Əzizov, Dövlət Gömrük Komitəsi Gömrük tariflərinin tənzimlənməsi və ödənişlər Baş idarəsinin rəisi Mirqasım Vahabov hesabatla bağlı fikirlərini söylədilər.

Müzakirələr zamanı çıxış edən deputatlar Əli Məsimli, Vüqar Bayramov, Vahid Əhmədov, Rüfət Quliyev, Ziyad Səmədzadə, Aydın Hüseynov, Məzahir Əfəndiyev məsələ barədə fikirlərini bölüşdülər, təkliflərini verdilər.

Maliyyə naziri Samir Şərifov çıxışlara münasibət bildirdi.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olundu.

# Siz bütün cəbhələrdə qalibsiniz

Hörmətli Prezident, cənab Ali Baş Komandan!

Dünyanı bürüyən koronavirus pandemiyasından xalqımızı qorumaqdan ötrü atdığınız qətiyyətli addımlar, vaxtında gördüyünüz qabaqlayıcı tədbirlər biz Qarabağ qazilərini Sizə minnətdarlıq etməyə, ehtiramımızı bildirməyə sövq etdi.

Astara rayonunda yaşayan biz Qarabağ qaziləri Dağlıq Qarabağda, eləcə də ölkəmizin digər sərhəd bölgələrində respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə erməni silahlılarına qarşı cəsarətlə vuruşmuş insanlarıq. Biz düşməni görüb üzərinə getmişik. Sizin bu gün bütün bəşəriyyəti sarsıdan, qorxulu və gözəgörünməz düşmənlə mübarizədə xalqımızın təhlükəsizliyini yüksək səviyyədə təmin etməyiniz ən böyük qəhrəmanlıqdır. Dünyanın ən güclü dövlətləri bu xəstəliklə mübarizədə böyük itkilər verdiyi halda, Azərbaycan xalqı və dövləti Sizin rəhbərliyinizlə cüzi itkilərlə bu təhlükəni adlamaqdadır. Yoluxma riski böyük olan sərhəd bölgəsinin vətəndaşları olaraq tam normal, heç bir xəstəlik təhlükəsi hiss etmədən həyatımıza davam ediriksə, demək, xalqımız rəhbərliyinizlə artıq bu qorxunc xəstəliyə qalib gəlməkdədir.

Cənab Prezident! Əslində, Siz bütün cəbhələrdə qalibsiniz və biz haqlı olaraq qalib Prezidentimizlə qürur duyuruq.

Hər dəfə siyasət meydanlarında məntiqli fikirləriniz, tutarlı sübutlarınız qarşısında çaşbaş qalan Ermənistan rəhbərliyini gülünc vəziyyətdə görüncə Sizə inamımız, rəğbət və ehtiramımız birə min artır.

İnanırıq ki, dönməz iradəniz və qətiyyətinizlə düşmən tapdağı altında olan torpaqlarımız tezliklə işğaldan azad ediləcək, müqəddəs üçrəngli bayrağımız qədim Şuşada, Xankəndidə əzəmətlə dalğalanacaqdır. Bütün Azərbaycan xalqı kimi, biz astaralı Qarabağ qaziləri də bu yolda hər an Sizinləyik və Sizin hər bir əmrinizə müsəlləh əsgər kimi hazırıq.

Allah Sizi və ailənizi qorusun!

***Dərin hörmətlə,***
***Astara rayonunun Qarabağ qaziləri***

# BMT-nin videokonfrans vasitəsilə keçirilmiş açıq müzakirələrində Ermənistanın işğalçılıq siyasətinin nəticələrindən danışılıb

Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyinin rəhbəri BMT Təhlükəsizlik Şurasının silahlı münaqişələr zamanı mülkü əhalinin qorunması ilə bağlı videokonfrans vasitəsilə keçirilmiş açıq müzakirələrində iştirak edib və çıxış səsləndirib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Daimi nümayəndəliyin rəhbərinin çıxışında müzakirə olunan məsələnin BMT Təhlükəsizlik Şurası, beynəlxalq ictimaiyyət və xüsusilə də, Azərbaycan üçün mühüm əhəmiyyət daşıdığı qeyd olunub. Dünyada mülki əhalinin yeni və yaxud uzun müddətdir davam edən, aktiv və ya atəşkəs ilə dayandırılmış silahlı münaqişələrdən əziyyət çəkdiyi, on minlərlə mülki vətəndaşın öldürüldüyü və ya zərər çəkdiyi, milyonlarla insanın isə öz doğma yurdlarından didərgin düşdüyü beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılıb.

Çıxışda Ermənistanın işğalçılıq siyasəti və onun nəticələri barədə, xüsusilə də azərbaycanlı mülki əhaliyə və infrastruktura dəymiş zərər və işğalçı ölkənin davam edən qeyri-qanuni fəaliyyəti barədə ətraflı məlumat verilib. Burada 1980-ci illərin sonunda 250 min azərbaycanlının Ermənistandan bir çox halda ölüm ilə nəticələnən məcburi deportasiyası qeyd olunub, həmçinin 1991-ci ilin sonu və 1992-ci ilin əvvəllərində Ermənistan tərəfindən Azərbaycana qarşı müharibənin başlanıldığı və bunun nəticəsində on minlərlə insanın həyatını itirdiyi, o cümlədən mülkü infrastruktura, digər mülkiyyətə və yaşayış yerlərinə zərər verildiyi qeyd olunub.

Həmçinin Daimi Nümayəndəliyin rəhbərinin çıxışında Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrdə yaşayan azərbaycanlılara qarşı etnik təmizləmənin həyata keçirildiyi və bunun nəticəsində bir milyondan çox azərbaycanlının öz torpaqlarından didərgin salındığı vurğulanıb, işğalçı ölkənin BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri və beynəlxalq hüququ kobud şəkildə pozmaqda davam etdiyi diqqətə çatdırılıb. Bununla yanaşı, Ermənistan tərəfindən sözügedən ərazilərdə hərbi quruculuq işlərinin aparılması, ərazilərin demoqrafik, mədəni və fiziki xüsusiyyətinin dəyişdirilməsi istiqamətində məqsədyönlü siyasət yürüdüldüyü qeyd olunub. Bu fəaliyyətin regionda sülh, təhlükəsizlik və sabitliyə təhdid yaratdığı, o cümlədən bununla yüz minlərlə insanın azadlıq və hüquqlarının pozulduğu ifadə edilib.

Daimi Nümayəndəliyimizin rəhbəri bu yaxında dərc edilmiş "Azərbaycan ərazilərində müharibə cinayətləri və Ermənistanın məsuliyyəti" adlı hərtərəfli hesabata istinad edərək, hesabatın Ermənistan tərəfindən törədilmiş müharibə cinayətlərini sübut edən dəlilləri əks etdirdiyini vurğulayıb.

Çıxışda BMT Təhlükəsizlik Şurası tərəfindən silahlı münaqişələr zamanı zərər çəkmiş mülki əhalinin qorunması məsələsinin daima diqqət altında saxlanılmalı olduğu və silahlı münaqişə tərəflərinin beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərinə sadiq olmaları üçün tələbin mütəmadi olaraq bəyan edilməsinin vacibliyi vurğulanıb.

# Azərbaycanda daha 273 nəfər koronavirusa yoluxub, 56 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 273 yoluxma faktı qeydə alınıb, 56 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1943, 1954 və 1956-cı il təvəllüdlü 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 5935 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 3564 nəfər müalicə olunaraq sağalıb, 71 nəfər vəfat edib, 2300 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 50 nəfərin vəziyyəti ağır, 73 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 309901 test aparılıb.

# Yaşamın keşiyində: *ayıq və sayıq*

## Azərbaycan polisi çevikliyi, fədakarlığı ilə pandemiyaya qarşı mübarizəyə mühüm töhfə verir

*Əvvəli 1-ci səh.*

Azərbaycan dövlətinin koronavirus infeksiyası ilə mübarizə sahəsində bütün zəruri tədbirləri həyata keçirməsi nəticəsində ölkəmizdə pandemiya ilə əlaqədar məsələləri ciddi nəzarətdə saxlamaq, virusun geniş yayılmasının qarşısını almaq və insanların həyatını maksimum şəkildə qorumaq mümkün olub. Xüsusi karantin rejimi dövründə yoluxma hallarının sayı minimuma endirilmiş, ölkəmizdə ölüm halları çox aşağı səviyyədə olmuş, xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalanların sayı yeni yoluxma hallarının sayını kəskin üstələmişdir.

COVID-19-a qarşı görülən bütün bu qabaqlayıcı tədbirlər sayəsində Azərbaycanda karantin rejimində bir çox sahələrdə yumşalmalar həyata keçirildi.

Hazırda əksər iş yerlərinin fəaliyyətə başlaması, insanlarımızın normal həyat şəraitlərinə geri dönməsi dövlətimizin və hər bir vətəndaşının bu həssas günlərdə bir-birinə dayaq-dəstək durması, bu çətin günlərdə koronavirusla üzbəüz döyüşə atılanların, ondan qorxmayanların qalibiyyəti sayəsində əldə edildi.

Tibb işçilərimiz, həkimlərimiz yoluxan şəxslərin sağalması, yenidən həyata qaytarılması uğrunda öz həyatlarını təhlükəyə ataraq sözün əsl mənasında ölüm-dirim savaşına çıxıblar və bu zalım virusun canlar almasına mane olurlar. Fədakar tibb işçilərimiz sayəsində COVİD-19-a yoluxaraq müalicə alan yüzlərlə ümidsiz xəstələrimiz sağaldılaraq həyata, öz doğmalarının yanına qaytarılır...

### Bizi özümüzdən qorumağa çalışdılar

Hələ sərt karantin dönəmlərindən bu gözəgörünməz bəlaya yoluxma təhlükəsi olan sağlam vətəndaşlarımızın keşiyində isə Azərbaycan polisi dayanmışdı...

Biz sağlam olaq, koronavirusa yoluxmamaq üçün evdə qalaq deyə, onlar öz canlarını təhlükəyə ataraq küçələrə çıxdılar. Gecə-gündüz yollarda, postlarda, parklarda, bir sözlə, insan yaşamı olan hər bir yerdə qoruyucumuza çevrildilər.

Sosial məsafə, karantin qaydalarına əməl etməyimizi təmin etdilər. Yaşlı, tənha, kimsəsiz insanların köməyinə tələsdilər, sovqat apardılar, bu çətin günlərdə onlara mənəvi dayaq durdular, ümid qonağı oldular.

Bəzən bizi özümüzdən qorumağa çalışdılar. Məsuliyyətsiz davranaraq, sosial izolyasiyaya riayət etməyib ziyafət təşkil edəndə, müxtəlif yollarla karantin postlarından keçmək istəyəndə, qanunsuz kafe-çayxana işlədəndə və digər bu kimi minlərlə qayda pozuntuları edəndə bunun önünə keçdilər və elə bu sayədə ölkəmizdə kütləvi yoluxmaların qarşısını aldılar. Hər an, hər dəqiqə təhlükənin fərqində oldular, onun şaxələnməsinə aman vermədilər...

### İndi polisimizin üzərinə böyük yük, yüksək məsuliyyət düşür

Azərbaycan polisinin karantin günlərində göstərdiyi fəaliyyətə Prezident İlham Əliyev də öz çıxışında qiymət vermişdi: "Hesab edirəm ki, bizim hələlik tam razı ola bilmədiyimiz yeganə məsələ məsuliyyətdir. Çünki bəzi insanlar özlərini məsuliyyətsiz aparırlar. Bəzi insanlar qəbul edilmiş qaydaları pozmağa çalışırlar. Beləliklə, həm özlərini, həm yaxınlarını, həm də ki, tanımadığı insanları risk altına qoyurlar. Bunu etmək olmaz. Bu qadağalar ona görə qəbul edilib ki, yoluxma halları məhdudlaşdırılsın. Yaşı 65-dən yuxarı olan insanlar küçəyə çıxa bilməzlər. Bunu onlar başa düşməlidirlər. Bizim polis işçiləri onları çox mülayim formada başa salmağa çalışırlar. Siz indi yaxşı bilirsiniz ki, bəzi ölkələrdə polis nümayəndələri necə davranırlar. Televizorda görürük, heç iki-üç sual da vermir, dərhal hərəkətə keçir. Bizim polisimiz insanları qoruyur. İndi onların üzərinə böyük yük, böyük məsuliyyət düşür. Onlar da öz sağlamlıqlarını risk altına atırlar. Gecə-gündüz küçələrdə onu başa sal, bunu başa sal. Biz nə etməliyik?! Qaydaların pozulmasına imkan verə bilmərik. Biri deyir ki, mənə heç nə olmaz, biri deyir ki, mən qorxmuram. Söhbət ondan getmir ki, sənə heç nə olmaz, yoxsa olar. Birincisi, sənə bir şey olarsa, gərək ən azı 10 həkim sənə qulluq etsin, 10 həkim öz həyatını, sağlamlığını, yaxınlarının sağlamlığını risk altına atsın bir məsuliyyətsiz adama görə. Bu, tamamilə qəbuledilməz bir fikirdir ki, "mən qorxmuram, mənə bir şey olmaz". Hesab edirəm ki, belə adamlar məsuliyyətə cəlb edilməlidir. Biz maksimum çalışırıq ki, bu vəziyyətdə insanların narahatlığını anlayaq və kömək göstərək. Hər kəs üçün çətindir. Aydın məsələdir ki, evdə oturmaq çətindir. Xüsusilə nəzərə alsaq ki, son illər ərzində Bakı şəhərində, bütün digər yerlərdə, rayonlarda gözəl parklar, istirahət zonaları salınıbdır, hava da yaxşıdır. Ancaq hər bir adam məsuliyyətli olmalıdır. Olmaz belə. Yaşı 65-dən yuxarı insanlar evdə oturmalıdırlar. Vəssalam, birmənalı şəkildə! Həmçinin 10-dan çox insan bir yerə toplaşmamalıdır. Bunu da pozurlar. Ona görə də bu tədbirlər daha da sərtləşdiriləcək.

İndi görün Avropanın inkişaf etmiş ölkələrində nələr baş verir. Orada 2 nəfərdən çox adam bir yerə yığışa bilməz, 2 nəfərdən çox. Əgər polis işçiləri onu görürlərsə, dərhal ölçü götürürlər. Heç yalvar-yapış etmirlər, ölçü götürürlər. Ona görə bizdə hər bir kəsdə məsuliyyət hissi olmalıdır. Məsuliyyət hissi də bu gün sərgilədiyimiz həmrəylik və birlik hisslərinin səviyyəsinə qalxmalıdır".









### Yoluxma təhlükəsinin qarşısını almaq yalnız polisin üzərinə düşən vəzifə deyil...

Həqiqətdir ki, Azərbaycanda koronavirusla bağlı müşahidə edilən müsbət nəticələrdə, karantin rejiminin qısa zaman kəsimində yumşalmaya keçməsində polislərimizin də zəhmət payı var...

Amma karantin rejimi tam ləğv edilməyib və təəssüf ki, yumşaldılmalardan və sərt qadağalar aradan qaldırılandan sonra, yeni yoluxma hallarının sayında artım müşahidə olunmağa başlamış, əldə edilmiş pozitiv nəticəni qoruyub saxlamaq mümkün olmamışdır. Hazırkı dövrdə pandemiya ilə səmərəli mübarizə bilavasitə vətəndaşların davranışı və məsələyə məsuliyyətlə yanaşmasından, eləcə də fəaliyyətinə icazə verilən sahələrdə rəhbər şəxslərin karantin rejimi qaydalarına riayətindən birbaşa asılıdır. Hər bir şəxs sosial məsuliyyətdən irəli gələrək özünü, yaxınlarını və digər cəmiyyət üzvlərini qorumaq üçün movcud sanitar-gigiyenik qayda və tələblərə ciddi riayət etməli, başqalarını da bu fəaliyyətə dəvət etməlidir.

Amma nə yazıq ki, hələlik qoyulan qaydalara tam əməl edilmədiyinin şahidi oluruq.

Əfsus ki, bir çox hallarda sosial məsafə saxlamağı da, maskasız gəzməyin təhlükəli olduğunu da polislərin xatırlatmasından eşidirik...

Bəli, təhlükələrdən qorunmağımız, məsuliyyətsiz davranışlarımızın qarşısını kəsmək üçün Azərbaycan polisi səfərbər olub. Metrolarda, keçidlərdə, postlarda, küçələrdə, parklarda, ticarət mərkəzlərində, demək olar ki, hər yerdə xəstəliyə qarşı sipərimizə, təhlükəni görən gözlərimizə çevriliblər.

Baxmayaraq ki, koronavirusa yoluxma təhlükəsi yaradan bütün halların qarşısını almaq yalnız polisin üzərinə düşən vəzifə deyil...

### Bir-birimiz üçün yaşayaq, bir-birimizi yaşadaq...

Həm də polisin xüsusi iş forması onu koronavirus təhlükəsindən sığortalamır. Onlar da hər birimiz kimi bu infeksiyaya yoluxa, daşıyıcıya çevrilə, əzizlərinə, ailələrinə bu təhlükənin ayaq açmasına səbəb olarlar. Kimisinin ata-anası, kimisinin bacı-qardaşı, kimisinin də övladları ürəklərində narahatlıqla onların yolunu gözləyir...

Məhz onların da fədakar əməyi nəticəsində, dünyanın pandemiyanın birinci dalğasını atlatmaqda aciz olduğu bir dövrdə Azərbaycan təhlükəni ram etməyi bacarıb. Bu bəladan birdəfəlik qurtulmaq, ona qalib gəlmək isə, dövlətimiz, tibb işçilərimiz, polislərimiz və digər virusla ön cəbhədə mübarizə aparanlarla yanaşı, hər birimizin fərdi məsuliyyətindən asılıdır...

Karantinin tələblərinə, sosial məsafə qaydalarına əməl edək, ictimai yerlərdə mütləq maska taxaq, lüzum olmadığı halda küçələrə çıxmayaq, ictimai nəqliyyatdan istifadə etməyək. Özümüzü, doğmalarımızı, yaşlılarımızı, tibb işçilərimizi, həkimlərimizi, polislərimizi, vətəndaşlarımızı, ümumilikdə xalqımızı qoruyaq...

Zamanın tələbi olan bu müqəddəs missiyanı yerinə yetirək, bir-birimiz üçün yaşayaq, bir-birimizi yaşadaq...

Birlikdə güclü olaq, birlikdə var olaq...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Tərtər rayonu cəbhə bölgəsidir, düşmənlə 48 kilometr təmas xətti var. Əhali düşmənlə üz-üzə, göz-gözə yaşayır, bütün risklərə baxmayaraq, təsərrüfat işləri ilə məşğul olur, tikinti-abadlıq işləri aparır. Rayonda dövlət-xalq-ordu birliyi çox güclüdür. 2016-cı ilin aprel hadisələri bunu bir daha sübut etdi. O zaman düşmən Tərtərin yaşayış məntəqələrini atəşə tutdu, Əskipara kəndinə ağ fosforlu bomba atıldı, evlər dağıldı, mülki şəhidlər verildi. Ancaq tərtərlilər öz doğma yurdlarını tərk etmədilər. Belə bir ağır zamanda Prezident İlham Əliyev ölkənin birinci xanımı Mehriban Əliyeva ilə birlikdə düşmənin 200 metrliyində müharibədən daha çox zərər çəkmiş Qapanlı kəndinin sakinləri ilə görüşə gəldi.




# Dövlət qayğısı Tərtəri şöhrətə qovuşdurub

O həyəcanlı günlərdə güvəndiyi, gücünə, qüdrətinə inandığı dövlət başçısını yanında görən tərtərlilərin ürəyi dağa döndü. Hər bir ölkə vətəndaşının Prezidenti olacağını söyləyən İlham Əliyevin verdiyi tarixi vəd isə beləcə şərəflə doğrulurdu. Top mərmilərinin dağıtdığı yaşayış evlərinin vəziyyəti ilə yerində tanış olan, cəbhə bölgəsinin sakinləri ilə unudulmaz səmimi görüşlər keçirən Prezident İlham Əliyev səfərdən dərhal sonra xüsusi sərəncam imzaladı, rayonda dağılmış evlərin bərpası üçün 3 milyon manat vəsait ayırdı.

Dövlət başçısının qayğısı ilə 17 yaşayış məntəqəsində 256 fərdi yaşayış evinə dəymiş zərər ən qısa zaman kəsiyində aradan qaldırıldı. Müharibədən zərər çəkmiş şəhər 6 saylı Tam və Qazyan kənd ümumi orta məktəblər təmir olundu. Dövlət qayğısı sayəsində Tərtərdə aparılan tikinti, abadlıq, quruculuq işləri yenidən geniş vüsət aldı. Qayğının məntiqi nəticəsi olaraq 2016-cı ildə Tərtər şəhərində içməli su və kanalizasiya sisteminin yenidən qurulması layihəsi uğurla başa çatdırıldı. Yeni Azərbaycan Partiyasının rayon təşkilatı üçün inzibati bina, Uşaq-gənclər şahmat məktəbi, 100 yerlik Körpələr evi-uşaq bağçası, Tərtər çayı üzərində yeni körpü inşa edilib rayon sakinlərinin istifadəsinə verildi.

2017-ci ilin 28 noyabrında Tərtər rayonuna növbəti səfəri çərçivəsində Prezident İlham Əliyev Tarix-diyarşünaslıq muzeyinin, 1170 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksinin və Tərtər-Seydimli-Qaradağlı-Sarov avtomobil yolunun açılış mərasimlərində iştrak etdi. Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə tərtərlilərin fədakarlığına verdiyi yüksək dəyəri vurğulayan Prezident İlham Əliyev demişdir: "Tərtər rayonunda işlər düzgün qurulub. Mən rayonda dəfələrlə olmuşam. Xüsusilə son vaxtlar burada gedən quruculuq-abadlıq işləri məni çox sevindirir. Əminəm ki, sizi də sevindirir. Keçən dəfə biz may ayında görüşmüşdük. O vaxt mən dağılmış evlərə baş çəkdim və bir daha əmin oldum ki, Tərtər sakinləri qəhrəmandırlar. Onlar burada-döyüş bölgəsində düşmənlə üz-üzə möhkəm dayanıblar və atılan, evlərinə dəyən mərmilər onların iradəsinə zərrə qədər təsir etməmişdir".

Dövlətin davamlı qayğısı bu cəbhə bölgəsində əhalini narahat edən sosial problemlərin uğurlu həllinə, elektrik enerjisi, mavi yanacaq və içməli su ilə təminat məsələlərinin yaxşılaşdırılmasına əhəmiyyətli təsir göstərir, iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatının sürətli inkişafına təkan verir. Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələrin, xüsusilə pambıqçılığın və baramaçılığın inkişaf etdirilməsi, bu sahədə əvvəlki şöhrətin qaytarılması çağırışına Tərtər kəndlisi sanballı əmək töhfələri ilə cavab verir. Son illər Tərtərdə pambıqçılığın əvvəlki şöhrətini qaytarmaq məqsədilə həyata keçirilən məqsədyönlü təşkilat-təsərrüfat tədbirlərinin nəticələri yetərincə fərəhlidir. Ötən təsərrüfat ilində 3.427 hektar sahədə pambıq əkilmiş, becərmədə aqrotexniki tələblərə ciddi əməl olunaraq tarlalarda bol məhsul yetişdirilməsi təmin olunmuşdur. Nəticədə 11.924 ton "ağ qızıl" tədarük edilmişdir. Hər hektar pambıq sahəsinin orta məhsuldarlığı 34.8 sentner olmuşdur ki, bu da ölkənin pambıqçılıq rayonları arasında qazanılan ən yüksək göstəricidir.

Ədalət naminə qeyd etmək lazımdır ki, Tərtər zəhmətkeşlərinin qazandıqları hünər ikiqat alqışa layiqdir. Ermənistan silahlı qüvvələri illərdi ki, digər ərazilərimizlə yanaşı, Sərsəng su anbarını da işğal altında saxlayır, Tərtər rayonunda kənd təsərrüfatının inkşafına, əkinlərin suvarma suyu ilə təmin olunmasına ciddi problemlər yaradırlar. Məkrli düşmənlərimiz öz mənfur xislətlərinə uyğun olaraq suya daha çox ehtiyac duyulduğu yaz aylarında, kənd təsərrüfatı bitkilərinin becərilməsi dövründə Tərtər çayına gələn suyun qarşısını kəsir, cəbhə bölgəsinin sakinlərini ciddi çətinliklərlə üz-üzə qoyurlar. Dövlət başçısının cəbhə bölgələrinə xüsusi qayğı və diqqəti tərtərlilərin üzləşdikləri bu çətinliklərdən asılılığını da əhəmiyyətli dərəcədə yüngülləşdirir. Prezidentin imzaladığı sərəncamlar, ayırdığı vəsaitlər hesabına rayonun daha çox ehtiyac duyulan ərazilərində hər il yeni-yeni subartezian quyuları qazılır, əkinlərin su təminatı yaxşılaşdırılır. Minnətdarlıqla qeyd etmək lazımdır ki, hazırda rayon üzrə istismar olunan 531 subartezian quyusunun 150-si dövlət başçısının müvafiq sərəncamları ilə son illərdə vurulmuşdur. Tərtər kəndlisinin fədakar əməyi sayəsində 2019-cu ildə rayonda kənd təsərrüfatı məhsullarının ümumi həcmi 72 milyon 361 min manat təşkil etmişdir. Bu, əvvəlki illə müqayisədə 7.965 min manat çoxdur. Bunun 8 milyon manata yaxını yalnız pambıqçılıqdan əldə edilmişdir. Ötən mövsümdə 3.995 nəfər pambıq sahələrində çalışaraq evinə halal qazanc aparmışdır.

İndi yenə pambıqçıların qayğılı günləridir. Cari ilin məhsulu üçün 3933 hektar sahəyə çiyid səpilmişdir. Çiyid səpininin optimal müddətdə, yüksək aqrotexniki qaydalar əsasında aparılmasının nəticəsidir ki, hər yerdə normal bitiş alınmışdır. Hazırda pambıq tarlalarında kompleks becərmə işləri müvəffəqiyyətlə davam etdirilir.

Pambıq Tərtər kəndlisinin firavan həyatı, xoş güzəranı olmaqla yanaşı, həm də şöhrət mənbəyidir. Rayonun qabaqcıl fermerlərindən Bəyimsarov kəndindən Fazil Vəliyev birinci dərəcəli, Qaraağacı kəndindən İlkin Qurbanov isə ikinci dərəcəli "Əmək" ordenləri ilə təltif olunmuşlar. "Əmək" ordeninə layiq görülənlər arasında Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovun da olması, əslində, bütün rayon zəhmətkeşlərinin əməyinə verilən yüksək qiymətdir.



Ötən təsərrüfat ilində çəkilmiş foto













Tərtərdə pambıqçılıqla yanaşı, aqrar sektorun digər sahələrinin inkşafına da böyük önəm verilir. Keçən il 42.352 ton buğda, 11.936 ton şəkər çuğunduru, 6584 ton günəbaxan dəni, 4.515 ton kartof, 15.741 ton tərəvəz, 10.530 ton meyvə və giləmeyvə istehsal olunmuşdur. Gəlirli sahə olan baramaçılıqda böyük uğurlar qazanılır. Əgər 2016-cı ildə rayonun təsərrüfatlarında 1 ton barama tədarük olunmuşdursa, keçən il bu rəqəm 18.3 tona çatdırılmışdır. Baramaçılıqda cari ilin hədəfi isə 20 ton səviyyəsini keçməkdir.

Dövlət qayğısı Tərtər rayonunda dinamik iqtisadi inkişafı təmin etmişdir. 2003-cü ilə nisbətən 2019-cu ildə məhsul buraxılışının həcmi 6,6 dəfə, əhalinin gəlirləri 5,6 dəfə, orta aylıq əməkhaqqı 12.5 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi 4.9 dəfə artırılmışdır. Son altı ildə 3.992 yeni fərdi sahibkarlıq subyekti yaradılmış, 13.457 yeni iş yeri açılmışdır. Bu dövrdə 33 yaşayış məntəqəsi qazlaşdırılmış, rayon əhalisi 100 faiz təbii qazla təmin olunmuşdur.

Rayonda təsərrüfat işləri ilə yanaşı, tikinti, abadlıq, quruculuq işləri də müvəffəqiyyətlə davam etdirilir. Son beş ildə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 54 mənzilli bina və 25 nəfərə fərdi yaşayış evi tikilib istifadəyə verilmişdir. Hazırda Qarabağ əlilləri və şəhid ailələri üçün 31 fərdi yaşayış evinin tikintisi davam etdirilir. 10 cəbhəyanı kəndi birləşdirən uzunluğu 33.5 kilometr olan Səhlabad - Əskipara -Qaraağacı-Yuxarı Qaradağlı- Qapanlı - Qaynaq - Yuxarı Qapanlı - Qazyan - Təzəkənd - Hüsənli kəndarası avtomobil yolu yenidən qurulur.

Son illər ərzində 112 ictimai yaşayış binasının dam örtükləri, fasad və giriş hissələri əsaslı təmir olunmuş, həyətləri bütünlüklə asfaltlanmışdır. Dörd küçədə abad məhəllə yaradılmış, iki futbol meydançası quraşdırılmışdır.

Dövlətin qayğısından güc alan tərtərlilər doğma yurdun hər qarışını cənnətə döndəriblər. Düşmənlə üz-üzə yaşayan insanların yüksək əhvali-ruhiyyəsi, əmək qələbələri bu bölgəyə yolu düşən hər kəsi heyran edir. Tərtərlilər dövlətə və Prezidentə hər zaman sədaqətli olmaqla, xalq-dövlət birliyinin sarsılmazlığını parlaq şəkildə təcəssüm etdirirlər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Qarşılıqlı etimada və etibara söykənən səmərəli əməkdaşlıq

## AİB-in ölkəmizə ayırdığı kredit və zəmanətlərin ümumi məbləği 3 milyard dollardan çoxdur

*Əvvəli 1-ci səh.*

Həm də o səbəbdən ki, ilin-günün bu vaxtında - pandemiyanın dünyanın bütün ölkələrinin iqtisadiyyatına vurduğu görünməmiş ziyan üzündən hamının yardım üçün beynəlxalq maliyyə qurumlarına üz tutduğu indiki zamanda AİB kimi imkanlı bir bank Azərbaycanla əməkdaşlığı daha da dərinləşdirməyə qərar verərək belə bir videokonfransın keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir. Bu faktın özü bir daha Azərbaycanın beynəlxalq maliyyə qurumları arasındakı nüfuzunun nə dərəcədə yüksək olduğunu təsdiqləyir. Həmin nüfuz isə boş yerdən yaranmamışdır. O, ölkəmizdə iqtisadiyyatın intensiv inkişaf etməsinin, davamlı islahatlar aparılmasının, beynəlxalq maliyyə qurumları qarşısında öhdəliklərə əməl olunmasına ciddi yanaşılmasının nəticəsidir. Belə olmasaydı, sözügedən videokonfransda da səsləndirildiyi kimi, AİB rəhbərliyi gələcəkdə də ölkəmizdə həyata keçirilən bir sıra layihələrə kredit ayırmağa nəinki hazır olduğunu, hətta əlaqələrimizin ayrı-ayrı layihələrdən uzağa getdiyini bəyan etməzdi.

"Azərbaycanla Asiya İnkişaf Bankı arasında əməkdaşlıq 1999-cu ildən bəri dərinləşməkdədir. Burada söhbət təkcə bir sıra layihələrdən getmir, həmçinin bizim birgə regional əməkdaşlığımız da mövcuddur. Asiya İnkişaf Bankı Rəhbərlər Şurasının 48-ci illik Toplantısının 2015-ci ildə Bakıda uğurla keçirilməsi qarşılıqlı etimad və hörmət üzərində qurulmuş tərəfdaşlığımızın bariz nümunəsi olmuşdur". Bu sözləri AİB-in prezidenti M.Asakava videokonfransda səsləndirmişdir və göründüyü kimi, bank rəhbərlik səviyyəsində Azərbaycanla hərtərəfli, o cümlədən regional əməkdaşlığa yüksək qiymət verir.

Bugünümüzdə isə həmin əməkdaşlığın həm, necə deyərlər, çeşidi, həm də coğrafiyası genişdir. Bu barədə Prezident İlham Əliyev konfransda geniş məlumat verərək bildirmişdir: "...biz bir sıra mühüm layihələr üzərində işləyirik. Asiya İnkişaf Bankının Azərbaycana ayırdığı kredit və zəmanətlərin ümumi məbləği 3 milyard ABŞ dollarını ötür. Bu vəsait bizə infrastruktura investisiya yatırmağa kömək edib. Biz elektrik enerjisinin istehsalı, dəmir yolu tikintisi, su və kanalizasiya ilə bağlı çoxsaylı infrastruktur layihələrini dəstəklədiyinə görə Asiya İnkişaf Bankına çox minnətdarıq".

Bu yerdə xüsusi vurğulamaq lazımdır ki, AİB "Cənub qaz dəhlizi" layihəsini dəstəkləyən və ona maliyyə ayıran ilk maliyyə qurumudur. İndi bu layihənin icrası tamamlanmaq üzrədir. Artıq dəhlizin istifadəyə verilməsi çərçivəsində 3 layihə tamamlanıb, sonuncu olan Trans-Adriatik boru kəmərininsə 95 faizi çəkilib. Bütün işlərin vaxtında və keyfiyyətlə icrasında, sözsüz ki, AİB-in rolu danılmazdır və bu, Azərbaycan rəhbərliyinin diqqətindən kənarda qalmayıb. "Əlbəttə ki, biz "Cənub qaz dəhlizi" layihəsinin həyata keçirilməsinə sadiqliyinizə və dəstəyinizə, maliyyə dəstəyinizə görə sizə çox minnətdarıq. ...Sizin çox mühüm və vaxtında göstərdiyiniz dəstək bizə həmçinin çox geniş kreditorlar qrupu yaratmağa kömək etdi". Bu sözləri Prezident İlham Əliyev videokonfransda AİB-in Azərbaycanla əməkdaşlığından danışarkən demişdir.

Amma AİB-lə ölkəmiz arasında əməkdaşlıq bunlarla da bitmir. Hazırda portfeldə suvarma və təhsillə bağlı icra olunacaq layihələr var. Bundan əlavə, yaxın gələcəkdə əməkdaşlıq çərçivəsində Azərbaycanın inkişaf perspektivlərindən olan özəl sektorun dəstəklənməsi, infrastrukturun yenilənməsi, kiçik və orta müəssisələrə yardım edilməsi kimi layihələrin icrası nəzərdə tutulur.

Regional layihələrə gəldikdə, Şimal-Cənub istiqamətində dəmir yolunun bərpasında Azərbaycanın AİB-in dəstəyinə ehtiyacı var. İndiyəcən ölkəmiz sözügedən dəhlizə böyük məbləğdə sərmayə yatırmışdır. Bunun sayəsində böyük potensialı olan dəhlizdən artıq istifadə edilir. Amma ölkəmiz bu zaman ciddi problemlə qarşılaşır. Məsələ bundadır ki, İranla sərhəddən başlayaraq Rusiya ilə sərhədəcən dəmir yolunun keyfiyyəti tələblərə cavab vermir. O üzdən qatarların sürəti aşağıdır: "Buna görə də biz qatarların sürətini artırmaq üçün indi artıq bəzi vəsaiti sərmayə olaraq yatırmışıq və biz bunu etməyi planlaşdırırıq. Çünki belə ola bilər ki, bütün yüklərin öhdəsindən gəlmək üçün bizim mövcud infrastrukturumuz kifayət etməsin", - deyən Prezident İlham Əliyev bu gün artıq Rusiya ilə sərhəddə tıxacların olmasını AİB rəhbərliyinin diqqətinə çatdırmışdır. Dövlət başçısı bunun səbəbini həm Azərbaycandan, həm də İrandan artan ixrac mallarının artıq yük maşınları ilə daşınmasının mümkün olmaması ilə izah etmişdir: "Buna görə də bizə Şimal-Cənub dəhlizinin bir hissəsi olacaq müasir dəmir yolu sistemi lazımdır. Mən sizdən bu layihəni də nəzərdən keçirməyi xahiş etmək istərdim". Bu xahiş isə əsassız deyil. Prezident İlham Əliyev bununla Azərbaycanın daha bir regional layihədə əsas qovşaq ölkə olmaq istəyini ortaya qoymuşdur.

Özü də indidən demək olar ki, bu istəyin reallaşacağına, yəni ölkəmizin tranzit imkanlarının daha da artacağına şübhə yeri yoxdur. Bu qənaətə gəlməyə həm Azərbaycan Prezidentinin milli mənafe olan yerdə ardıcıllığı və prinsipiallığı, həm də AİB-in ölkəmizə olan etimad və etibarı imkan verir.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Məhsulumuz yenə də bol olacaq

## Prezident İlham ƏLİYEV: "Kənd təsərrüfatının inkişafı bizim üçün prioritet sahə olaraq qalır"

*Əvvəli 1-ci səh.*

Çünki ölkə əhalisinin demək olar ki, 50 faizi kənd yerlərində yaşayır. Beləliklə, əminəm ki, bu, bizim birgə həyata keçirə biləcəyimiz çox mühüm yeni layihə ola bilər."

Bildirilmişdir ki, ümumilikdə, Azərbaycan yeni texnologiyalara, innovasiyalara hazırdır. Bunun üçün artıq ölkədə əhəmiyyətli insan kapitalı yaradılıb və dövlət xidmətləri, sosial xidmətlərlə bağlı texnologiyalarımız xaricdə də istifadə olunur. Başqa sözlə, ölkəmiz yeni texnologiyalara tam açıqdır. Çünki bu texnologiyalar yeni miqyasa, dinamizmə, tərəqqiyə, iş yerlərinə və rifaha gətirib çıxarır.

Dövlət başçısı Ağstafa və İmişli Rayon İcra hakimiyyətləri başçılarının təyin olunmaları ilə əlaqədar videoformatda qəbul zamanı da kənd təsərrüfatı mövzusunu önə çəkmişdir. Bu sahədə yerli icra orqanlarının görəcəyi işlərin çox olduğunu bildirmişdir. Belə ki, kənd təsərrüfatının inkişafı ölkə üçün prioritet sahə olaraq qalır. İndiki şəraitdə kənd təsərrüfatının müasir üsullarla inkişafı ilə əlaqədar çox geniş proqramlar icra edilir. Ona görə də müvafiq dövlət qurumları ilə birlikdə kənd təsərrüfatının inkişafı ilə bağlı işlər görülməlidir. İnsanların işlə təmin edilməsi, məhsuldarlığın artırılması və sahənin inkişafını şərtləndirən bütün amillərin təmin edilməsi gündəlikdə qalmaqdadır.

Hazırda suvarma suyunun ədalətli bölüşdürülməsi də böyük əhəmiyyət kəsb edir. Bu il də keçən ildəki kimi quraqlıq olduğu üçün suvarma suyundan böyük qənaətlə istifadə edilməlidir.



Prezident bu məsələni bir daha önə çəkmişdir: "Bütün bu işləri düzgün təhlil etmək və tədbirlər planı hazırlamaq üçün mənim sərəncamımla xüsusi komissiya yaradılıb və artıq komissiyanın ilkin araşdırmaları mənə təqdim edilib. Biz bunu, demək olar ki, təxmin edirdik, bəzi hallarda itkilər 40-50 faiz səviyyəsindədir. Bu, dözülməzdir. Belə israfçılıq böyük problemlərə gətirib çıxarır."

Odur ki, su itkilərinə yol vermək olmaz. Eləcə də suyun ədalətli bölüşdürülməsi məsələsi çox aktualdır.

Bu və digər məsələlərdə sahibkarlara kömək göstərilməlidir. Çünki indiki şəraitdə ölkəmizin uğurlu inkişafı, ilk növbədə, qeyri-neft sektorunun hesabına təmin ediləcək və əlbəttə ki, sahibkarlığın inkişafı daha böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyev bu gün Azərbaycanda böyük sahibkarlıq sinfinin formalaşdığını vurğulayaraq bəzi hallarda sahibkarların çətinliklərlə üzləşdiyini də qeyd etmişdir: "Hansısa layihəni icra etmək, hansısa investisiyanı qoymaq istəyəndə məmurlar tərəfindən problemlərlə üzləşirlər. Bəzi məmurlar onların layihələrinə şərik çıxmaq istəyirlər, bəzi məmurlar onların gəlirlərinə göz dikirlər. Buna qətiyyən yol vermək olmaz. Əksinə, siz sahibkarları cəlb etməlisiniz, siz onları inandırmalısınız. İndi dünyada investisiyalar uğrunda mübarizə aparılır. Ölkələr öz təkliflərini irəli sürürlər ki, investorları cəlb etsinlər. Ona görə siz, ilk növbədə, yerli sahibkarları inandırmalısınız ki, onlar gəlib məhz sizin rayonlarınıza sərmayə qoysunlar, iş yerləri yaratsınlar və beləliklə, rayonların inkişafına töhfə versinlər. Amma bəzi hallarda sahibkar iş görmək istəyir, ona min cür əziyyət verirlər. Buna yol vermək olmaz."

Bütün bunlar dövlətin sahibkara, xüsusilə kənddə yaşayıb fəaliyyət göstərən sahibkara dəstəyinin davamlı olduğunun bariz nümunəsidir. Təsadüfi deyil ki, son aylar koronavirus pandemiyası ilə əlaqədar sahibkarlara hərtərəfli kömək göstərilmişdir. Ona görə də indi Azərbaycan kəndində bütün mövsümi işlər öz qaydasında gedir. Dövlət çoxsaylı tədbirlər həyata keçirir ki, məhsulumuz yenə də bol olsun.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsi ilə hidrofor nasos sistemlərinin təmiri işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet portalından tender haqqında ətraflı məlumatı əldə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3(üç) il üzrə işlərin, mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş 2(iki) müqavilə) və ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı 200 manatdır.

**Təşkilat: ”Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: ”Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;
- malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 1 iyul 2020-ci il saat 16.00-a qədər, tender təklifi və bank təminatını isə 9 iyul 2020-ci il saat 18.00-a qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsi ilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı 10 iyul 2020-ci il saat 16.00-da dövlət satınalmalarının vahid internet portalında həyata keçiriləckdir.

***Tender komissiyası***

# Paşinyan əsas virus yayıcısına çevrilib

## Ermənistanın baş naziri Dağlıq Qarabağda insanları xəstəliyə yoluxdurub

Ermənistanda koronavirusa yoluxanların sayının sürətli artımı bu ölkəni daha çətin duruma salmağa başlayıb. Hazırda ölkədə virusa yoluxanların sayı 10 mini keçir. Pandemiya qurbanlarının ümumi sayı 170-ə yaxınlaşır. Bu arada xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyana da koronavirus diaqnozu qoyulub. Hökumət başçısı özünün "Facebook" səhifəsində canlı yayımda bu xüsusda bildirib: "İqamətgahdan işləyəcəyəm. Məndə rabitə üçün bütün şərait və vasitələr var. Nə qədər mümkün olarsa, o qədər də çalışacağam".

Paşinyan yoluxduğu yeri də açıqlayıb: "İşgüzar müşavirədə yoluxduğumu düşünürəm. Bilirsiniz, belə müşavirələrdə su ilə stəkan qoyurlar. Mən fikir verdim ki, stəkanları əlcəksiz qoyublar. Yerindəcə danladım və stəkanları dəyişmələrini istədim".

Amma "Vahid Ermənistan" partiyasının həmtəsisçisi Artur Qazinyan "Facebook" hesabında məsələnin daha maraqlı məqamlarına nəzər salıb: "Paşinyan Dağlıq Qarabağdakı ziyafətdə artıq virus daşıyıcısı idi və çox güman ki, bütün tədbir iştirakçılarını, o cümlədən yüksək rütbəli hərbçiləri yoluxdura bilib".

O, ictimaiyyətin böyük əksəriyyətinin bu barədə dərin şübhəsini, Paşinyanın özünün yaratdığı vəziyyətin qurbanı olması üçün psixoloji cəhətdən hiyləyə əl atmasının mümkünlüyünü bir kənara qoyub, tamamilə fərqli məqamla maraqlanır: "Xatırlayırsınızsa, 10 gün əvvəl Dağlıq Qarabağda erməni siyasi "elitası" maskalar, əlcəklər olmadan və sosial məsafəyə qoyulan minimum tələblərə əməl etmədən ziyafətə qatıldılar. Mütəxəssislərin fikrincə, virusun inkubasiya dövrü ən az 14 gün davam edir. Yəni Paşinyanın ziyafətdə artıq bir virus daşıyıcısı olduğunu iddia etmək olar və o, digər ziyafət iştirakçılarını da yoluxdurmağı yəqin ki, bacarıb. Əgər Ermənistanın daxili və xarici təhlükəsizliyinin rəsmi qarantı olan şəxs özünün və ailəsinin sağlamlığını, təhlükəsizliyini təmin edə bilmirsə, o zaman vətəndaşlarımız müdafiə olunduqlarına necə əmin ola bilərlər? Bu, Paşinyanın Ermənistanın tarixində ən qeyri-ciddi, məsuliyyətsiz baş nazir olduğunu söyləməyə əsas verən yeni bir rekordudur. Və Paşinyan bununla "qürur" duya bilər".

Ermənistan Respublikaçılar partiyasının üzvü Artak Zakaryan isə qeyd edir: "Hörmətli baş nazir. Təəssüf edirəm ki, səndə və ailə üzvlərində koronavirus infeksiyası qeydə alınıb. İki ildir səninlə dövlətimizin indisi və gələcəyi üçün siyasi mübarizə aparırıq. İki ildir davamlı şəkildə sən sübut edirsən ki, biz təəssüflər olsun haqlıyıq. Niyə təəssüflər olsun dediyimi özün yaxşı bilirsən və hər şeyi daxildən görürsən. Açıq-aydın yanlış yollarla sona qədər getmək məcburi deyil, hətta gecikmə ilə dayanmaq, geri qayıtmaq və hər şeyi düzəltmək olar".

Ermənistanın "Milli Gündəm" partiyasının həmtəsisçisi Avetik Çalabyan da vəziyyətin qəliz olduğunu bildirir: "Ermənistanda virusla bağlı vəziyyət dəhşətli istiqamətdə inkişaf edir. Ötən həftənin sonunda Ermənistanın baş naziri Nikol Paşinyan vəziyyətin nəzarətdən çıxdığını və İtaliya ssenarisinin özünəməxsus üslubda yaxınlaşdığını qəbul edib".

O qeyd edib ki, bu dəfə də Paşinyan maska taxmayan və sosial məsafəni gözləməyən insanları günahlandırıb: "Lakin məgər maska taxmaq infeksiyanın sürətlə yayılmasının qarşısını almaq üçün kifayət idi və ya ayrılıqda götürülmüş vətəndaşın karantin tədbirlərinin ləğv olunması şəraitində sosial məsafəni gözləmək imkanı var idi?" Çalabyan bildirib ki, Ermənistanda koronavirusdan ölüm dünyada ən yüksəklərdəndir, bu, pandemiya əleyhinə mübarizənin may ayı ərzində uğursuz olduğunu göstərir.

Erməni ictimai xadim, dramaturq Karine Xodikyan isə hesab edir ki, Ermənistan koronavirus sınaq imtahanını verə bilməyib. Bildirib ki, Ermənistan səlahiyyətliləri indiyə qədər vətəndaşların məsuliyyət miqyasının nə qədər olduğunu bilmirsə, deməli, onlar öz iş ofisindən çıxmayacaqlar: "Pasxa günlərinin səhnələrindən sonra komendant ofisi müvafiq nəticə çıxarmadı, mən bu günlərdə komendant ofisinin işini hətta 3 olaraq qiymətləndirməyəcəm, qənaətbəxş deyil. Küçələrdə nə baş verdiyini necə görməmək olardı? Mən yazdım ki, 10-12 gün sonra alovlanma olacaq. Mən mütəxəssis olmayaraq bənzər proqnoz vermişdim".

Bütün bunlar pandemiyanın Ermənistanı tam çökdürməkdə olduğunu göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Konqoda Ebolanın yeni epidemiyası qeydə alındı



Konqo Demokratik Respublikasında Ebola virusunun yeni epidemiyası təsdiqini tapmışdır. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına istinadən "The Telegraph" qəzeti xəbər verir.

Ölkənin şimal-qərbində yerləşən Mbandaka şəhərində xəstəliyə altı yoluxma halı aşkarlanmışdır. Bundan əlavə, Mbandakanın yaxınlığında dörd nəfərin vəfat etdiyi bildirilir.

Bobo regionunun qubernatoru Boloko Bolumbu vətəndaşları gigiyenaya riayət etməyə, əllərini yumağa, əllə görüşməməyə, habelə xəstələrə və vəfat edənlərə toxunmamağa çağırmışdır.

Konqoda Ebola epidemiyasını ÜST-ün baş direktoru Tedros Adanom Gebreyesus da təsdiqləmişdir. O xatırlatmışdır ki, ölkə özünün şərq hissəsində Ebola ilə mübarizənin yekun mərhələsindədir.

## Tropik qasırğa Salvador və Qvatemalada 17 nəfərin həyatına son qoydu



Salvador və Qvatemala ərazisində azı 17 nəfər "Amanda" tropik qasırğasının qurbanı olmuşdur. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

İlkin məlumata görə, qasırğa nəticəsində baş vermiş daşqınlar və torpaq sürüşmələri Salvadorda 15 nəfərin, Qvatemalada 2 nəfərin həyatına son qoymuşdur. Salvadorun Daxili İşlər naziri Mario Duranın dediyinə görə, yeddi nəfər itkin düşmüş hesab olunur. Ölkədə təxminən 7 min nəfər 154 sığınacaqda yerləşdirilmişdir.

Qvatemala Fövqəladə Hallar Xidmətinin nümayəndəsi David de Leon məlumat vermişdir ki, qasırğa nəticəsində ölkədə iki nəfər həlak olmuşdur. Bir kişi evin uçqunlarının altında qalmış, 9 yaşlı oğlan isə çayda batmışdır.

## Tramp ABŞ-dakı iğtişaşları "ev terroru" hesab edir

ABŞ Prezidenti Donald Tramp ABŞ-ı bürümüş genişmiqyaslı iğtişaşları "ev terroru" kimi qiymətləndirmişdir. O, Ağ evdə jurnalistlərin qarşısında çıxış edərkən vurğulamışdır ki, Linkoln Memorialı və İkinci Dünya müharibəsi Memorialı vandalizmə məruz qalmış, əsas tarixi kilsələrdən birinə od vurulmuş, iki polis əməkdaşı güllələnmişdir. Trampın dediyinə görə, bu cür hərəkətlər ev terroru və insanlığa qarşı cinayətdir.

Bundan əvvəl ABŞ Prezidenti bildirmişdi ki, Amerika hökuməti radikal solçu "Antifa" hərəkatını qadağan olunmuş terrorçu təşkilatlar siyahısına daxil etmək niyyətindədir. Öz növbəsində ölkənin Baş prokuroru Uilyam Barr əlavə etmişdi ki, bu hərəkatın üzvlərinin əməlləri terrorizm kimi qiymətləndirilir.

Xatırladaq ki, ABŞ şəhərlərində etirazlar və iğtişaşlar afroamerikalı Corc Floyd polis əməkdaşı tərəfindən qətlə yetirildikdən sonra başlamışdır.

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## Bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, yağış yağacağı, dolu düşəcəyi ehtimalı var

Azərbaycanda iyunun 3-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 20-23°, gündüz 29-32° isti, Bakıda gecə 20-22°, gündüz 30-32° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 752 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.

İyunun 3-də Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, yağış yağacağı, dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq, qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 33-38° isti, dağlarda gecə 11-16°, gündüz 19-24° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, iyunun 3-də Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin axşam saatlarında bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 31-36° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində gün ərzində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 19-24° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 31-36° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq rayonlarda şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 27-32° isti, dağlarda gecə 10-15°, gündüz 19-24° isti olacaq.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 33-38° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-19°, gündüz 26-31° isti, dağlarda gecə 17-19°, gündüz 21-26° isti olacağı ehtimal edilir.

## Polis Köhnə Xaçmaz kəndinin ərazisini xüsusi nəzarətə götürüb

Ölkəmizdə tətbiq olunan xüsusi karantin rejiminin qaydaları yumşaldılsa da, son bir neçə gündə Xaçmaz rayonunun Köhnə Xaçmaz kəndində sakinlər arasında yeni növ koronavirusa yoluxma halları qeydə alınıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Quba regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, Xaçmaz Rayon Polis Şöbəsinin əməkdaşları pandemiyanın rayon ərazisində aşkarlanmasına operativ reaksiya verərək, adı çəkilən kəndin ərazisini xüsusi nəzarətə götürüblər. Polis əməkdaşları tərəfindən dərhal qabaqlayıcı tədbirlər görülüb.

Bundan əlavə, şöbə əməkdaşları tərəfindən kənd sakinləri ilə maarifləndirici və izahedici söhbətlər aparılıb, sosial məsafənin qorunması üçün lazımi tədbirlər yerinə yetirilib. Həmçinin marşrut xətləri ilə hərəkət edən bütün avtobuslara nəzarət gücləndirilib, maskasız hərəkət edən sakinlərə tibbi maskalar paylanılıb.

## DİN: "Metroda polis əməkdaşları ilə mübahisə edən şəxslərdən bir neçəsi saxlanılıb"

İyunun 2-də sosial şəbəkələrdə və xəbər saytlarında Bakı Metropoliteninin metro qatarlarından birinin vaqonunda polis əməkdaşları ilə bir neçə vətəndaş arasında mübahisə yarandığını əks etdirən videogörüntü paylaşılıb.

AZƏRTAC xəbər verir ki, bununla bağlı jurnalistlərin sorğusunu cavablayan Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi Ehsan Zahidov xüsusi karantin rejimi ilə əlaqədar xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarının insanların sağlamlığını və təhlükəsizliyini qorumaq məqsədilə onlardan mütləq qaydada tibbi maskalardan istifadə etmələrini və sosial məsafə saxlamalarını tələb etdiklərini bildirib.

E.Zahidov diqqətə çatdırıb ki, metro qatarında tibbi maskadan istifadə etməyən bir neçə sərnişindən də bu qaydalara riayət olunması tələb edildikdə onlar polisin qanuni tələbinə qəsdən tabe olmayaraq mübahisəli vəziyyət yaradıblar. Polis əməkdaşlarının həyata keçirdikləri tədbirlər nəticəsində həmin şəxslərdən bir neçəsi artıq saxlanılıb, barələrində müvafiq tədbirlər görülüb. Digərlərinin də müəyyənləşdirilərək saxlanması üçün tədbirlər davam etdirilir.

"Bir daha vətəndaşlarımızın diqqətinə çatdırırıq ki, uzunmüddətli proses olan koronavirus infeksiyasına qarşı mübarizədə böyük əhəmiyyət kəsb edən qabaqlayıcı tədbirlər hər bir şəxsin gündəlik həyat tərzinə çevrilməlidir. Xüsusən mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq tibbi profilaktik qaydalara ciddi əməl olunmalı, nəfəs yollarını qoruyan fərdi vasitələrdən - maskadan, respiratordan mütləq qaydada istifadə edilməli, sosial məsafə gözlənilməlidir", - deyə Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri qeyd edib.

## Baş Prokurorluq daha bir şirkət rəhbərinin korrupsiya əməllərini ifşa edib

Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar çərçivəsində görülən işlərdən biri kimi iqtisadiyyatın bütün sahələrində sahibkarlıq subyektlərinin formalaşmasına dövlət səviyyəsində geniş imkanların yaradılması, habelə bu istiqamətdə qanunvericilik aktlarının qəbul edilməsi və uzunmüddətli dövlət layihələrinin uğurla həyata keçirilməsi əlverişli formalaşmış biznes və investisiya mühitinin daha da güclənməsinə təkan verib. Bununla yanaşı, dövlətin iqtisadiyyatın inkişafı sahəsindəki siyasətinə kölgə salan bəzi sahibkarlıq subyektləri tərəfindən yol verilən korrupsiya və rüşvətxorluq kimi qanunsuz hallara qarşı mübarizə istiqamətində kompleks, sistemli və ardıcıl tədbirlər davam etdirilməkdədir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilməkdə olan belə tədbirlərdən biri kimi, "Fakt Araşdırıcı-N" MMC-nin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə Qida Təhlükəsizliyi Dövlət Agentliyindən daxil olmuş material Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Araşdırma zamanı MMC-nin təsisçisi və direktoru Zeynal Məmmədovun 2017-2020-ci il tarixlərdə rəhbərlik etdiyi cəmiyyətə işə götürmək adı ilə vətəndaşlardan ümumilikdə 31 epizod üzrə cəmi 17 min manat məbləğində pulu bir neçə dəfə rüşvət kimi istəyərək almasına əsaslı şübhələr müəyyənləşdirilib. Araşdırmalarla, həmçinin Z.Məmmədovun qulluq mövqeyindən istifadə etməklə aldığı rüşvətin həqiqi mənbəyini gizlətmək məqsədilə ianə adı altında rəsmiləşdirmək üçün rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil edərək maliyyə əməliyyatları həyata keçirib həmin pul vəsaitini təkrarən leqallaşdırmasına şübhələr üçün əsaslar müəyyən olunub.

Faktla bağlı Cinayət Məcəlləsinin 311.3.2-ci (təkrar rüşvət alma), 193-1.2.2-ci, 193-1.2.3-cü (cinayət yolu ilə əldə edilmiş küllü miqdarda pul vəsaitlərini qulluq mövqeyindən istifadə etməklə təkrar leqallaşdırma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

Z.Məmmədova həmin maddələrdə nəzərdə tutulmuş ittiham elan olunmaqla barəsində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Həmin hüquqi şəxsin barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat başlanıb.

Hazırda cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən qanunazidd hallarla üzləşən vətəndaşlara müraciət edərək 961 nömrəli Çağrı Mərkəzi və ya Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 nömrəli "Qaynar xətt" əlaqə mərkəzinə məlumat vermələrini xahiş edir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi nazir müavini Sevinc Həsənovaya əzizi

**SÜDABƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi iş yoldaşları Əjdər Cavadova əzizi

**HİKMƏT CAVADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin kollektivi general-leytenant Mürsəl Vəliyevə anası

**TEYYUBƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin kollektivi general-leytenant Mürsəl Vəliyevə anası

**TEYYUBƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar Xidmətin kollektivi Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin müavini - Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi Mürsəl Vəliyevə anası

**TEYYUBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7403
Sifariş 1362
Qiyməti 40 qəpik